Buraxılış-Blok Team @buraxilisteam

## English

***Listen to the passage and answer questions 1 – 6.***

John Hetrick, a retired engineer, received an official right in 1953 for a set of safety airbags for automotive vehicles.

An accident during a Sunday afternoon trip to the Pennsylvania countryside caused John Hetrick to design modern airbags, one of the most important advances in automobile safety.

The idea of airbags came to him immediately after he and his family had a car accident. As they were trying to avoid both rocks and fences on the road, Hetrick and his wife were trying to protect their three-year-old daughter from getting injured. After the accident he was afraid of losing his daughter. Hetrick decided to create something that can protect people from injuries during a car accident. When Hetrick returned home, he started making designs for his "safety airbags". His early airbag designs inspired others in the automotive industry to work on this safety feature of cars. Today his company, Key Safety Systems, designs and produces airbags, seatbelts, and other safety systems.

1) The passage is mainly about ... .
A) various safety system products
B) the creation of safety airbags
C) Key Safety Systems Company
D) the countryside of Pennsylvania
E) the ways of drawing designs

2) Complete the sentence according to the passage.
*An accident during a Sunday afternoon trip to the Pennsylvania countryside caused John Hetrick … .*

A) to buy safety airbags
B) to retire from his job
C) to design modern airbags
D) to clear rocks on the road
E) to repair his damaged car

3) Which statement is true according to the passage?
A) The idea of airbags came to J. Hetrick before the accident.
B) John Hetrick decided to help the engineers.
C) John Hetrick was a retired engineer.
D) During the accident Hetrick was alone in the car.
E) John tried to rescue his wife in the accident.

Buraxılış-Blok Team @buraxilisteam

***Fulfil the tasks number 4 – 6 in the "Answer sheets".***

4) Write the correct answer to the question according to the passage.
*What does the company Key Safety Systems design and produce today?*

5) Complete the sentence according to the passage.
*After the accident Hetrick was afraid of … .*

6) Write one adjective from the passage that describes the word "*advances*".

7) Choose the correct variant.
*Kate … to a new house three years ago, but she … the roads yet.*
A) was moving, didn't learn
B) is moving, hadn't learned
C) has moved, hasn't learned
D) moved, hasn't learned
E) moved, doesn't learn

8) Choose the correct pair of synonyms.
A) easy – difficult
B) right – left
C) weak – strong
D) various – different
E) sweet – bitter

9) Choose the correct variant.
*The manager wants us … the work quickly.*
A) to do
B) do
C) did
D) does
E) have done

Buraxilış-Blok Team @buraxilisteam

10) Choose the correct variant.
*This is ... movie than we saw the day before yesterday.*
A) most interesting
B) the most interesting
C) an interesting
D) a more interesting
E) interesting

11) Choose the correct Passive Voice version of the sentence.
*The villagers had sold all the apples by this time last autumn.*
A) By this time last autumn all the apples have been sold.
B) All the apples are sold by this time last autumn.
C) The villagers have sold all the apples by this time last autumn.
D) The villagers were sold all the apples by this time last autumn.
E) All the apples had been sold by this time last autumn.

Buraxılış-Blok Team @buraxilisteam

12) Choose the correct exclamatory sentences.
1. What an interesting questions are they!
2. What an interesting question it is!
3. How interesting the question is!
4. How interesting questions are they!
A) 1, 2 B) 3, 4 C) 2, 3
D) 1, 3 E) 2, 4

13) Choose the correct variant.
*It is very noisy, I … hear what you are talking about.*
A) can't B) have
C) had to D) am not able
E) should to

14) Make up a sentence.
1. interact
2. more quickly
3. with each other
4. people
5. can
6. using the internet
A) 4, 5, 1, 3, 2, 6
B) 4, 5, 3, 1, 6, 2
C) 6, 4, 3, 5, 2, 1
D) 6, 3, 4, 2, 5, 1
E) 1, 5, 2, 3, 4, 6

15) Choose the line of nouns in the singular.

A) eye, chair, building
B) children, candy, paper
C) ears, grape, iron
D) scissors, brush, pasta
E) notebook, wind, shoes

16) Choose the correct variant.
– *Pete plays tennis like a professional.*
– …
1. Neither does Carol.
2. So does Carol.
3. Carol doesn't either.
4. Carol does, too.
A) 1, 3 B) 2, 3 C) 1, 2
D) 1, 4 E) 2, 4

Buraxılış-Blok Team @buraxilisteam

17) Choose the correct variant.
*... was the printer invented by?*
A) When B) Where
C) How long
D) Who E) Why

18) Choose the correct variant.
*... Zambezi River is ... fourth-longest river in Africa.*
A) A, – B) –, the
C) The, the D) The, –
E) A, the

19) Choose the correct variant.
*The Whites arrived in London ... plane yesterday.*
A) with B) on C) by
D) – E) in

20) Choose the correct conjunction.
*Tom is English ... he lives in France.*
A) because B) but C) if
D) as E) so

21) Choose the correct variant.
*The salt and the sugar ... on the table.*
A) is B) are
C) wasn't D) was
E) hasn't been

Buraxılış-Blok Team @buraxilisteam

22) Choose the correct variant.
*… has been there.*
1. Both of them
2. All of them
3. Each of them
4. One of them

A) 2, 4 B) 1, 4 C) 1, 3
D) 1, 2 E) 3, 4

***Read the passage and answer questions 23 – 30.***

1. The blues is a type of music developed in the USA in the early 20th century. It has got lots of influences of African music. In the early 20th century a lot of people from Europe and other continents began to move to North America. Many African workers were also brought from the southern states to work in North America. African workers kept their musical traditions and while working they would sing work-related songs. So African music was combined with the folk music of the Europeans and new styles of music were produced. Blues music originated from these musical styles.

2. Blues music was created by African Americans as a form of self-expression and protest against racism and discrimination. It became well-known in northern cities of America such as Chicago and Detroit. Then Blues music quickly spread to other parts of the United States and it became popular worldwide.

3. The most famous blues musicians Ray Charles, B.B. King, Muddy Waters and Robert Johnson had an important influence on the development of blues music. They helped to shape its sound and style. Now blues music is considered to be one of the most popular genres of music in the world.

Buraxılış-Blok Team @buraxilisteam

23) Choose the correct answer to the question according to the passage.
*How were new styles of music created?*

A) by supporting discrimination
B) by singing American folk songs
C) by moving to northern cities of Africa
D) by changing style of American music
E) by mixing African and European music

24) The passage is mainly about … .

A) music genres in the world
B) the life of the workers in the USA
C) the southern states of the USA
D) the history of a kind of music
E) famous American singers

25) Which statement is true according to the passage?

A) The blues appeared in the USA at the beginning of the 19th century.
B) African music greatly influenced the blues music.
C) Many people moved from North America to Europe.
D) Detroit was the city where the blues was first created.
E) Muddy Waters was the founder of the blues.

26) Choose the correct variant to complete the sentence according to the passage.
*African workers … .*
1. preserved their musical traditions
2. composed songs for the Europeans
3. were singing songs while working
4. were brought to southern states

A) 2, 3  B) 1, 3  C) 1, 2
D) 1, 4  E) 2, 4

Buraxılış-Blok Team @buraxilisteam

***Fulfil the tasks number 27 – 30 in the "Answer sheets".***

27) Write the close meaning of the word "*a noise*" from paragraph 3.

28) Which word from paragraph 1 best fits the following definition "*to gradually grow or become bigger, more advanced, stronger, etc.*"?

29) Complete the sentence by changing at least 2 words according to the passage.
*The most popular blues musicians had … .*

30) Answer the question by expressing your opinion. Write at least three sentences.
*What kind of music is popular in your country and why?*

Buraxılış-Blok Team @buraxilisteam

## Azərbaycan dili

31) *"Səhər oyananda bu günün dünəndən yaxşı olacağını düşünürdü"* cümləsi ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.

1. Xəbəri keçmiş zamanda qayıdış növdə olan feillə ifadə olunub.
2. Sintaktik təhlilini müxtəlif cür düşünmək mümkündür.
3. Bütün cümlə üzvlərinin işləndiyini əminliklə söyləmək olar.
4. Müəyyən şəxsli sadə cümlədir.
5. Tərzi-hərəkət zərfliyi zərflə ifadə olunub.

A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 3, 4
D) 2, 4, 5 E) 1, 2, 4

32) Hansı nümunədə zərfliyin iki məna növü işlənmişdir?

A) Uşaqlar aşağıda Turqut baba ilə qarşılaşdılar.
B) Əmim babamın yeni əkdiyi ağaclara baxa-baxa sözünə davam etdi.
C) Mən Qarabağ Universitetində təhsil almaq arzusundayam.
D) Nurani qoca ayağa qalxaraq gələnləri salamladı.
E) Qonaqlar bir neçə gün bundan əvvəl kəndə gəlmişdilər.

33) Cümlələrin birində feil *"idi"* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir:

A) Babam bizə kənddən sovqat göndərdi.
B) O bu xəbəri eşidəndə hamıdan çox sevindi.
C) Nurəddinin çoxdan gözlədiyi gün gəlib çatdı. (S.S. Axundov)
D) O, nadinc olduğundan müəllimləri təngə gətirmişdi. (S.S. Axundov)
E) Əmiraslan doqquz yaşına çatdıqda atası onu molla yanına oxumağa apardı (S.S. Axundov)

Buraxılış-Blok Team@buraxilisteam

34) Eyler-Venn diaqramının tələblərini nəzərə alaraq, cümlələrlə bağlı doğru fikirləri müəyyən edin.

I *Təzəcə bulaq başına çatıb süfrə açmışdıq ki, yağış başladı.*

II *Kim sənin səhvlərini göstərirsə, o sənin ən yaxın dostundur.*




1. Həm baş, həm də budaq cümlə feili xəbərlidir.
2. Budaq cümlədə köməkçi nitq hissəsi işlənmişdir.
3. ○⟶□ sxeminə uyğundur.
4. Tərkibindəki sadə cümlələrdən biri qrammatik cəhətdən digərinə tabedir.
5. Baş cümlədə söz birləşməsi ilə ifadə olunmuş cümlə üzvü işlənmişdir.

A) 1, 4 B) 2, 4 C) 1, 2, 3 D) 1, 5 E) 3, 4, 5

35) Yazılışı ilə tələffüzü ***fərqlənməyən*** sözlərin sırasını müəyyən edin.

A) hətta, qəssab, yeddi
B) asudə, qrafin, pauza
C) palıd, hiddətlə, istəkli
D) diqqət, qastrol, montaj
E) səkkiz, rəqqasə, qabaq

Buraxılış-Blok Team @buraxilisteam

36) Əvəzliklərdən biri məna növünə görə digərlərindən fərqlənir:

A) biri B) hər kəs C) hərə D) filan E) hamı

37) Hansı nümunədə söz birləşməsi ilə yanaşı, köməkçi nitq hissəsi də işlənmişdir?

A) Qardaşım Gəncədə bir il oxudu.
B) Hamı iclasdan sonra zalı tərk etdi.
C) Gecələr bu mənzərə daha gözəl olurdu.
D) Əsgər sanki olanları sezmişdi.
E) Təbiətin gözəlliyi onu valeh etmişdi.

38) Nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.

*Saldı xalısını səhraya min gül,*
*Bəzədi torpağı süsənlə sünbül.*
*Ağacda qönçələr baxdı göz-gözə,*
*Bənzədi qayğısız gülər bir üzə.*

(N. Gəncəvi)

1. Birinci misrada müxtəlif nitq hissələrinə aid omonim sözlər işlənib.
2. İkinci misrada omonimliyi olan köməkçi nitq hissəsi işlənib.
3. “Gülər” sözü sifət və feil kimi işlənən omonimdir.
4. “Üz” sözü omonimlik xüsusiyyətinə malikdir.
5. Bütün nitq hissələrinin həm leksik, həm də qrammatik mənası var.

A) 1, 2, 5 B) 1, 3 C) 1, 2, 4
D) 3, 5 E) 2, 4, 5

Buraxılış-Blok Team @buraxilisteam

39) Cümlələrdə fərqləndirilmiş sözləri nəzərə alaraq, uyğunluğu müəyyən edin.

1. **Elə** bu vaxt uzaqdan bir avtobus göründü.
2. Oğru **elə** bağırdı, doğrunun bağrı yarıldı.

a. İşarə məqsədilə işlənib.
b. Ədatdır.
c. Danışanın ifadə etdiyi fikrə münasibət bildirir.
d. Yalnız qrammatik mənası var.
e. Leksik mənası var.

A) 1 – b, e; 2 – a, d
B) 1 – a, b; 2 – c, e
C) 1 – a, e; 2 – b, d
D) 1 – b, d; 2 – a, e
E) 1 – c, d; 2 – a, e

40) Hansı cümlələrdə güman, şübhə bildirən ara söz işlənmişdir?

1. Dünənki fırtına, həqiqətən, çox dəhşətli idi.
2. Bəlkə, hər şeyi zamanın öhdəsinə buraxaq.
3. Doğrusu, uşaqlıq dostumu tanıya bilmədim.
4. Bu, ola bilsin, sonuncu oyundur.
5. Ehtimal ki, sən qalib gələcəksən.

A) 2, 4, 5
B) 1, 4, 5
C) 1, 2
D) 3, 5
E) 2, 3, 4

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Papaq**

Dördnəfərlik dəstə dördnala çapırdı. Kazaklar az qalırdı, onları haqlasın. Birdən qarşıda dərin bir uçurum göründü. Atlılar ehtiyatlandılar, lakin kazakların sayca onlardan çox olduğunu güman etdikləri üçün dayanmağın ölümə bərabər olduğunu düşündülər. [1] İrəli getmək də təhlükəli idi: uçurum onları uda bilərdi. Yaxşı təlim görmüş atlar uçurumun üstündən atlanıb o biri taya keçdilər.

Kazaklar isə son anda atlarının başını çəkib dayandılar, bələd olmadıqları bu yerdə özlərini təhlükəyə atmaq mənasız idi.

Dəstə bir həftə öncə məcburən tərk etdiyi Kəsəmən kəndinə yaxınlaşmışdı. Onlar böyük xatadan qurtulmuşdular. Ancaq Oruc ağanın ürəyi qan ağlayır, dərd [illegible]ni yandırırdı. Desinmi, deməsinmi? La[illegible] qürurundan dillənmirdi.

İsrafil birdən atasını yeni görmüş kimi təəccüblə ona baxdı. Həyəcanla soruşdu:

– Ağam, papağın hanı? [2]

Oruc ağa kədərli halda:

– Ağ yalda güllə yerə saldı, – dedi.

Araya soyuq sükut *çökdü*[1]. Kərəmin fikirli-fikirli gəldiyi yollara boylanması atası İskəndərin gözündən yayınmadı. Sükutun soyuq buzlarını İsrafil *parçaladı*[2]:

– Mən gedib gətirərəm. Amma sabah. İndi ora getmək təhlükəlidir.

Oruc ağanı elə bil ildırım vurdu. [3] Bu da onun öyündüyü, güvəndiyi oğlu! Bir xeyli heç kəs dinmədi. Nəhayət, Oruc ağa dilləndi:

– Yaxşı, siz gedin!

– Bəs sən? – İsrafil soruşdu.

– Elimizin adətidir, oğul. Kişinin papağı başında olar. Demirsən, sabah gətirərəm? Mən də sabah evə gedərəm.

Buraxilis-Blok Team @buraxilisteam

Dəstədəkilər Oruc ağanın inadından dönmədiyinin dəfələrlə şahidi olduqları üçün susdular.

Qəfildən at *ayaqlarının*[3] tappıltısı eşidildi. Dərəni toz-duman bürüdü. Baxışlar Kərəmin getdiyi səmtə – Ağ yala dikildi. 4

Kərəmin papağın dalınca getdiyini anlayan İsrafil sanki qəflət yuxusundan ayıldı. Çevik bir hərəkətlə atının belinə sıçrayıb Kərəmin arxasınca çapdı.

İsrafil Ağ yala çatanda gördü ki, Kərəm güllə kimi gəlir, papaq da əlində. Kazaklar da onu ▲ *təqib edirlər*. O özünü itirmədən yaxınlıqdakı kolluqda *gizləndi*[4] və kazakların diqqətini yayındırmaq üçün dalbadal atəş açdı. Kərəmə də elə bu, lazım idi. Atını çapıb *uzaqlaşdı*[5]. 5

Gənclər kişilərin yanına qoşa gəldilər. Kərəm yəhərdən yerə sıçrayıb papağı Oruc ağaya verdi. Kişi dilucu ■ *dil-ağız elədi*.

İsrafil tez dilləndi:

– Bilirsiniz, nə elədi? Kazakların onu tutmaq üçün atdıqları kəməndi xəncərlə göydə doğradı.

Oğlunun hünərindən xəbərsiz olan Oruc ağa onu tərs-tərs süzdü. İskəndərin isə ●*ürəyi böyüdü*, fəxrlə oğlu Kərəmə baxdı.

41) Mətnə əsasən Oruc ağa ilə bağlı doğru fikri müəyyən edin.

A) Papağı Ağ yalda düşüb qaldığı üçün iztirab keçirir.
B) Papaqla geri qayıdan Kərəmi böyük şadyanalıqla qarşılayır.
C) Oğlunun özünü təhlükəyə atmasına razı olmur.
D) Oğlunun son hərəkəti ilə qürur duyur.
E) Dəstənin təqibdən xilas olunmasının səbəbkarıdır.

42) Mətndə üzərində rəqəm yazılmış sözlər əsasında cədvəldəki doğru fikirləri müəyyən edin.

| | *Həqiqi mənadadır* | *Məcazi mənadadır* | *İfadənin mətndəkindən fərqli mənada (həqiqidirsə, məcazi; məcazidirsə, həqiqi) cümlədə işlədilməsi* |
|---|---|---|---|
| 1. | | √ | Suyun dibinə çökmüş lil təbəqəsi onun içməli olmadığını göstərirdi. |
| 2. | | √ | İncə bir riqqət Rübabənin könlünü parçaladı. (Mir Cəlal) |
| 3. | √ | | Futbol oynadığı üçün ayaqları sızıldayırdı. |
| 4. | √ | | Dahilərin qüdrəti sözlərinin ruhunda gizlənir. |
| 5. | √ | | O getdikcə yazı-pozudan uzaqlaşır, məişət problemlərinin içində itib-batırdı. |

A) 1, 2, 4 B) 2, 3, 5 C) 1, 4, 5
D) 1, 2, 3 E) 3, 4, 5

Buraxılış-Blok Team @buraxilisteam

43) Mətnə əsasən səbəbini müəyyən etmək mümkündür:
1. Dəstənin təqib edilməsinin
2. İsrafilin atasına təəccüblə baxmasının
3. Təqibin sona yetməsinin
4. Dəstənin kəndi məcburən tərk etməsinin
5. Kərəmin Ağ yala getməsinin

A) 2, 3, 5 B) 1, 2, 4 C) 3, 4, 5
D) 1, 4, 5 E) 1, 2, 3

44) Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** | ***Ehtimaldır*** |
|---|---|---|
| 1. Kazaklar uçurum olan ərazini yaxşı tanımırdılar. 2. Kazaklar dəstədəkilərin papağa görə qayıdacaqlarını bilirdilər. | 3. Dəstədəkilər uçuruma düşməkdən xilas oldular. 4. Oruc ağa papağının başında olmadığının fərqində deyildi. | 5. Kazaklar dəstənin üzvlərindən sayca çox idi. 6. Kazaklar dəstədəkiləri ələ keçirə bilmədilər. |

A) 1, 2, 3 B) 1, 4, 5 C) 1, 2, 4, 6
D) 3, 4, 5, 6 E) 2, 3, 5

45) *“Onun gedişi acı bir faciə kimi Oruc ağanın sümüyünə, iliyinə işləyib onu çox sarsıtdı”* cümləsi mətndəki nömrələnmiş hansı çərçivənin yerinə artırıla bilər?

A) 2 B) 1 C) 3 D) 5 E) 4

Buraxılış-Blok Team @buraxilisteam

***46 – 50 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

46) Mətndə əvvəlində işarə qoyulmuş ifadələrin kontekstə görə qarşılığını (ifadə etdiyi mənanı) müəyyən edib yazın.

47) Mətnə əsasən cədvəli tamamlayın.

| ***Obrazların xarakterik xüsusiyyəti*** | |
|---|---|
| *Oruc ağa* | |
| *Kərəm* | |

48) Mətnə əsasən doğru fikri seçin (√) və seçiminizi əsaslandırın.

☐ Papağın Oruc ağaya gətirilməsində yalnız Kərəmin rolu var.

☐ Papağın Oruc ağaya gətirilməsində İsrafilin də rolu var.

49) Altından xətt çəkilmiş cümləni mətnin səciyyəvi üslubi xüsusiyyətlərinə uyğun zənginləşdirməklə yenidən yazın.

Buraxılış-Blok Team @buraxilisteam

50) *“Cəsarət təhlükəli vəziyyətdə üzə çıxır”* fikrini mətnlə əlaqələndirib fikrinizi yazın.

***51 – 60 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

**Qeyri-adi imperatorluq**

Dünyada mövcud olan ölkələrin ▲ *sayı* digər ölkələr tərəfindən tanınıb-tanınmamasından asılı olaraq artıb-azalır. Cırtdan dövlətlərin də çoxu bu qəbildəndir. Onların əsas hissəsi çox qədimdən Avropa qitəsində yerləşdiyi halda, bəziləri sonralar dünyanın müxtəlif qitələrində meydana çıxmışdır.

Atlantium imperatorluğu Avstraliyanın Sidney şəhərindəki bir mənzildə Corc Kuinkşank tərəfindən qurulan mikrodövlətdir. Bəs bu dövlət necə yarandı?

Corc Kuinkşank 1981-ci ildə Sidneydə yaşayan üç əmisi oğlu ilə müştərək bir dövlət yaratmağa qərar verir. **1.** Yeniyetmələr ilk olaraq Sidneydə 10 kvadratmetrlik bir mənzil aldılar. Bu, ölkənin ilk paytaxtı idi. Corc dövlət başçısı seçilərək imperator oldu. Bir əmisi oğlu isə ölkənin ilk baş naziri vəzifəsinə gətirildi. Daha sonra liseydən iki dostu da yüksək dövlət postlarını tutdu. 1990-cı ildə universiteti bitirdikdən sonra dostlar arasında anlaşılmazlıq meydana gəldi.

Atlantiumun digər qurucularının ölkəyə maraqları getdikcə azaldığı halda, Corc Kuinkşank tutduğu yoldan .......... . O, bayraq və gerb yaratdı, pul vahidini dövriyyəyə buraxdı. **2.** İli on aydan ibarət olan təqvim tərtib etdi.

**3.** Atlantiumun dünyanın dörd bir tərəfindən olan üç mindən artıq vətəndaşı var. **4.** Bu vətəndaşların əksəriyyəti heç bircə dəfə də Atlantiumda olmayıb. Atlantium vətəndaşı olmaq üçün internet vasitəsilə müraciət kifayətdir və burada yaşamaq məcburi deyil. Ölkənin vətəndaşı ola bilmək üçün sadəcə 25 dollar ödəmək lazımdır. Buradan və ölkənin pullarının internet vasitəsilə satışından əldə edilən gəlir Atlantiumun ehtiyaclarına sərf olunur.

Dövlətin siyasi həyatında mühüm şəxs olan Corc Kuinkşank 2008-ci ildə Sidneydən 350 km uzaq çöldə 80 hektarlıq ərazi satın almış və buranı ölkəsinin paytaxtı elan etmişdir. Paytaxt Konkordiyada hal-hazırda poçt və müxtəlif tikililər var.

**5.** İmperator şənbə və bazar günləri paytaxta gəlir, siyasi bəyanatlar hazırlayır. Başqa mikrodövlətlərin liderləri ilə məktublaşır. Atlantiumun ABŞ, Sinqapur və İsveçrədəki təmsilçiləri ilə ölkədaxili məsələləri müzakirə edir. Bir sıra ölkələrin nümayəndələri ilə mütəmadi olaraq diplomatik görüşlərdə iştirak edir. Hər ilin oktyabr ayında Atlantiumun tərəfdarları, vətəndaşları və təmsilçiləri ilə görüşür.

Ölkə hələ də rəsmi olaraq tanınmasa da, həftəsonları Atlantiumda insan ■ *dalğasını* müşahidə etmək olar. Əsl Avstraliya faunası ilə tanış olmaq istəyən digər ölkə vətəndaşları Konkordiyaya axın edirlər. Onların bələdçisi də elə imperatorun özüdür.

Buraxılış-Blok Team @buraxilisteam

51) Mətnin hissələrini genişləndirə bilən fikirlərə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş 2. Əsas hissə 3. Nəticə

a. Turistlər mənzil kirayələyib bir neçə gün burada qala da bilərlər.
b. Corc ölkəsini genişləndirmək üçün bir veb-sayt da yaratdı.
c. O, heyvanat aləmi ilə maraqlanan qonaqlara səmimi və sadə insan təsiri bağışlayır.
d. Yüksək vəzifələrin bölgüsü həyata keçirildi.
e. Bu kiçik ölkələrin adı çox eşidilməsə də, xəritədə qeyd olunmasa da, dünya iqtisadiyyatında müəyyən rol oynayır.

A) 1 – a, b; 2 – d; 3 – c, e
B) 1 – e; 2 – b, d; 3 – a, c
C) 1 – a, e; 2 – b, c; 3 – d
D) 1 – b, c; 2 – d; 3 – a, e
E) 1 – e; 2 – a, b; 3 – c, d

52) Cədvələ əsasən müəyyən edin.

| ***Mətndə məlumat var*** | ***Mətndə məlumat yoxdur*** |
|---|---|
| 1. Atlantiumun ilk paytaxtının sahəsi on kvadratmetr idi.<br>2. Corc Kuinkşank universitetin hüquq fakültəsinin məzunudur. | 3. Atlantiumda vətəndaşlar xüsusi vəsiqə ilə təmin olunurlar.<br>4. Atlantiumun vətəndaşlığını almaq üçün pul ödəmək lazımdır.<br>5. Konkordiya əhalisi sənətkarlıqla məşğul olur. |

A) 2, 4, 5 B) 1, 3, 5 C) 1, 2, 3
D) 2, 3, 4 E) 1, 4, 5

53) Mətndə altından xətt çəkilmiş sözlərdən heç birinin şərhinə uyğun *deyil*:

A) çoxluq, ən böyük hissə
B) birini əvəz edən, onun adından danışan
C) bir-birini başa düşməmə, yanlış anlama
D) yol göstərən
E) ümumi, ortaqlı, birgə

Buraxılış-Blok Team@buraxilisteam

54) Mətnə əsasən doğru fikirləri müəyyən edin.

1. Cırtdan dövlətlərin hamısı Avropa qitəsində yerləşmir.
2. Corc Kuinkşank həftənin bütün günlərini Konkordiyada keçirir.
3. Atlantiumun paytaxtında üç mindən artıq insan məskunlaşmışdır.
4. Konkordiya başqa ölkələrin vətəndaşlarının diqqətini cəlb edir.
5. Ölkənin ehtiyacları turizm hesabına ödənilir.

A) 2, 4 B) 1, 2, 3 C) 1, 4
D) 3, 4, 5 E) 1, 5

55) Əvvəlində rəqəm yazılmış hansı cümlələr mətndən çıxarılsa, məzmuna ***xələl gəlməz***?

A) 2, 5 B) 3, 4, 5 C) 1, 4
D) 1, 2, 3 E) 2, 4

***56 – 60 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

56) Mətndə nöqtələrin yerinə uyğun gələn ifadə yazmaqla cümləni tamamlayın.

57) Mətnə əsasən cədvəli doldurun.

| ***Müddəa*** | ***Faktlar*** |
|---|---|
| | İmperator siyasi bəyanatlar hazırlayır. |
| | İmperator bir sıra ölkələrin nümayəndələri ilə tez-tez diplomatik görüşlərdə iştirak edir. |
| | |

Buraxılış-Blok Team @buraxilisteam

58) "Atlantium vətəndaşı olmaq asandır" fikrini təsdiq edən iki fakt yazın.

59) Mətndə əvvəlində işarələr qoyulmuş ifadələr əsasında cədvəli doldurun.

| | *İnformativ funksiyadadır (√)* | *Poetik funksiyadadır (√)* | *Terminoloji funksiyadadır (√)* | *İfadənin mətndəkindən fərqli funksiyada cümlədə işlədilməsi* |
|---|---|---|---|---|
| ▲ | | | | |
| ■ | | | | |

60) Əsas və çərçivədəki mətnlər əsasında Eyler-Venn diaqramını doldurun.

Amerikada yaşayan 13 yaşlı Robert Medison öz otağını ayrı bir dövlət elan etməklə Talossa krallığını yaratmışdır. İlk illər onun dövlətinin vətəndaşları yalnız bir neçə dostu olmuş, sonralar sayları artmışdır. Bu ölkə özünəməxsus talos dilini yaratmağa və hətta bir neçə dövlət quruluşunu: monarxiya, demokratiya, kommunizmi sınaqdan keçirməyə də imkan tapmışdır. Talossa rəsmi olaraq tanınmamışdır.




Buraxilis-Blok Team @buraxilisteam

## Riyaziyyat

61) Mərkəzi *O* (3; 10) nöqtəsində olan və *B* (3; 8) nöqtəsindən keçən çevrənin tənliyini göstərin.

A) $(x+8)+(y+3)^2=11$

B) $(x+3)^2+(y+10)^2=4$

C) $(x-3)^2+(y-8)^2=16$

D) $(x-3)^2+(y-9)^2=53$

E) $(x-3)^2+(y-10)^2=4$

62) $y=3x-7$ və $y=5x-13$ düz xətlərinin kəsişmə nöqtəsinin koordinatları hasilini tapın.

A) 9 B) 3 C) 5 D) 1 E) 6

Buraxılış-Blok Team @buraxilisteam

63) $5^{x^2-2x}=125$ tənliyinin kiçik kökünü tapın.

A) –1 B) 0 C) –3 D) –2 E) 1

64) $\log_3\frac{9}{5}+\log_3 5$ ifadəsinin qiymətini tapın.

A) 0 B) 9 C) 5 D) 3 E) 2

65) Kürənin radiusunu necə dəyişmək lazımdır ki, həcmi 8 dəfə artsın?

A) 4 dəfə artırmaq
B) 2 dəfə azaltmaq
C) $\sqrt[3]{2}$ dəfə artırmaq
D) 2 dəfə artırmaq
E) $\sqrt[3]{2}$ dəfə azaltmaq

66) {3; 4; 5} çoxluğunun elementlərindən rəqəmləri ***təkrarlanmayan*** neçə müxtəlif ikirəqəmli ədəd düzəltmək olar?

A) 6 B) 9 C) 14 D) 12 E) 8

67) İki perpendikulyar müstəvinin birindən 5 sm, digərindən isə 12 sm məsafədə yerləşən nöqtədən bu müstəvilərin kəsişmə xəttinə qədər olan məsafəni tapın.

A) 14 sm B) 17 sm C) 13 sm
D) 10 sm E) 7 sm

Buraxılış-Blok Team@buraxilisteam

68) $x^2(a-b)-y^2(a-b)$ çoxhədlisini vuruqlara ayırın.

A) $(a-b)(x-a)(y-b)$
B) $(a+b)(x-y)(x+y)$
C) $(a-b)(x^2-a)(y^2-b)$
D) $(a-x)(b-y)(x+y)$
E) $(a-b)(x-y)(x+y)$

69) $\sin^2 x = 1$ tənliyini həll edin.

A) $\pm\frac{\pi}{12}+2\pi k,\ k\in Z$
B) $\frac{\pi}{2}+\pi k,\ k\in Z$
C) $\pm\frac{\pi}{6}+2\pi k,\ k\in Z$
D) $\frac{\pi}{3}+\pi k,\ k\in Z$
E) $\frac{\pi}{4}+2\pi k,\ k\in Z$

70)

$\frac{0,3}{0,15}-\frac{\frac{13}{20}}{0,26}$ ifadəsinin qiymətini tapın.

A) 4,5 B) 2,5 C) – 0,5 D) – 1,5 E) 3,5

71)

$3+x\le 7$ bərabərsizliyinin natural həllərinin cəmini tapın.

A) 12 B) 8 C) 10 D) 15 E) 9

Buraxılış-Blok Team @buraxilisteam

72)

300 ədədinin 40%-ni tapın.

A) 200 B) 180 C) 150 D) 120 E) 100

73)

Tam səthinin sahəsi 150 $sm^2$ olan kubun bir üzünün diaqonalını tapın.

A) 12 sm B) $5\sqrt{2}$ sm C) $6\sqrt{2}$ sm
D) $3\sqrt{2}$ sm E) 10 sm

74)

$a+\frac{1}{a}=3$ olduğunu bilərək $a^2+\frac{1}{a^2}$ ifadəsinin qiymətini hesablayın.

75)

$(3\sqrt{32}+4\sqrt{18})\cdot\sqrt{2}$ ifadəsinin qiymətini hesablayın.

76)

$\alpha=16°$, $\beta=20°$ və $\cup AmB=130°$ olarsa, $\gamma$ bucağının dərəcə ölçüsünü tapın.




Buraxılış-Blok Team @buraxilisteam

77) Həqiqi əmsallı $x^2-6x+m=0$ kvadrat tənliyinin köklərindən biri $x_1=3-2i$ olarsa, $m$ parametrinin qiymətini tapın.

78) $\tan\alpha+\tan\beta=8$, $\tan(\alpha+\beta)=-\frac{8}{11}$ olarsa, $\tan\alpha\cdot\tan\beta$ hasilini tapın.

***79 – 85 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

79) Sabit $x$ km/saat sürətlə axan çayın sahilində bir düz xətt boyunca ardıcıl olaraq $A$, $B$ və $C$ məntəqələri yerləşir. Motorlu qayıq çayın axını istiqamətində $A$ məntəqəsindən $C$ məntəqəsinə gedib, sonra isə axının əksinə $C$-dən $B$-yə qayıdıb. $AB$ = 44 km olarsa, cədvəldə verilənlərə görə çayın axma sürətini tapın.

| | Sürət (km/ saat ilə) | Zaman (saat ilə) |
|---|---|---|
| Axın istiqamətində ($A \to C$) | $30+x$ | 4 |
| Axının əksi istiqamətində ($C \to B$) | $30-x$ | 3 |




Buraxılış-Blok Team @buraxilisteam

80) Rombun iti bucağı $60^{o}$, kiçik diaqonalı 3 sm-dir. Rombun xarici oblastında olmaqla tərəfləri üzərində qurulmuş kvadratların sahələri cəmini tapın.

81) Yeni il üçün hazırlanmış şam ağacının budaqları mərtəbələr şəklində düzülmüş və bu mərtəbələr yuxarıdan aşağıya doğru 1-dən 9-a qədər nömrələnmişdir. Mərtəbələrdəki budaqların sayı nömrələndiyi ardıcıllıqla ədədi silsilə əmələ gətirir. 2-ci və 8-ci mərtəbələrdəki budaqların sayları cəmi 18-ə, 9-cu və 5-ci mərtəbələrdəki budaqların sayları fərqi 8-ə bərabər olarsa, ən alt mərtəbədəki budaqların sayını tapın.

82) $ABC$ üçbucağında $\angle C = 90°$, $BC = 8$ sm, $M$, $N$, $E$ nöqtələri isə uyğun olaraq $AC$, $CB$ və $AB$ tərəflərinin orta nöqtələridir. $S_{\Delta MNE} = 10 \text{ sm}^2$ olarsa, $AC$-nin uzunluğunu tapın.




Buraxılış-Blok Team @buraxilisteam

83) Perimetrləri cəmi 34 sm olan *ABCD* və *CEFM* paraleloqramlarının diaqonalları bir düz xətt üzərindədir. $AF = 13$ sm olarsa, *ABC* və *CFM* üçbucaqlarının perimetrləri cəmini tapın.




84) Şəkildə üzərində hərflər yazılmış 16 ədəd kart təsvir edilmişdir. Bu kartlar torbaya atılır və təsadüfi olaraq
3 kart torbaya qaytarılmamaq şərti ilə ardıcıl çıxarılır. Çıxarılan kartlardan birincisinin B, ikincisinin A, üçüncüsünün isə C hərfi yazılmış kart olması hadisəsinin ehtimalını tapın.

| | | | |
|---|---|---|---|
| A | C | B | B |
| B | A | B | C |
| C | B | A | B |
| B | C | B | A |

85) Hovuzu doldurmaq uçun ıstıfadə edilən *A* kranından, boşaltmaq üçün isə istifadə edilən *B* kranından axan suyun miqdarının zamandan asılılıq qrafikləri verilmişdir. Hər iki kran eyni zamanda açılarsa və 8 saat açıq qalarsa, həcmi 50 $m^3$ olan boş hovuzun neçə faizi su ilə dolar?




Buraxılış-Blok Team@buraxilisteam

CAVABLAR

# TAM ORTA (11 İLLİK) TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ 10 MART 2024-CÜ İL TARİXİNDƏ KEÇİRİLƏN BURAXILIŞ İMTAHANINDA İSTİFADƏ EDİLƏN TAPŞIRIQLARIN İZAHI

## Azərbaycan dili

5

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 35 saylı test tapşırığı**
**D variantı 40 saylı test tapşırığı**

*"Səhər oyananda bu günün dünəndən yaxşı olacağını düşünürdü"* cümləsi ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.

1. Xəbəri keçmiş zamanda qayıdış növdə olan feillə ifadə olunub.
2. Sintaktik təhlilini müxtəlif cür düşünmək mümkündür.
3. Bütün cümlə üzvlərinin işləndiyini əminliklə söyləmək olar.
4. Müəyyən şəxsli sadə cümlədir.
5. Tərzi-hərəkət zərfliyi zərflə ifadə olunub.

A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 3, 4
D) 2, 4, 5 E) 1, 2, 4

***Mövzu:*** Sintaktik təhlil
***Sinif:*** 7, 8
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir. 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.
***İzah:*** Cümlənin xəbəri indiki zamanda olan feillə ifadə olunub.
Sintaktik təhlilini həm ——﹏---═, həm də ﹏---═şəklində düşünmək mümkündür və hər iki halda müəyyən şəxsli sadə cümlədir.
Cümlədə təyin işlənməmişdir, mübtədanın işləndiyini isə əminliklə söyləmək olmaz.
Nümunədə tərzi-hərəkət zərfliyi işlənməmişdir, "yaxşı" sözü birləşmənin tərkibində işlənib.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 33 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

Hansı nümunədə zərfliyin iki məna növü işlənmişdir?

A) Uşaqlar aşağıda Turqut baba ilə qarşılaşdılar.
B) Əmim babamın yeni əkdiyi ağaclara baxa-baxa sözünə davam etdi.
C) Mən Qarabağ Universitetində təhsil almaq arzusundayam.
D) Nurani qoca ayağa qalxaraq gələnləri salamladı.
E) Qonaqlar bir neçə gün bundan əvvəl kəndə gəlmişdilər.

***Mövzu:*** Cümlənin ikinci dərəcəli üzvləri. Zərflik
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.
***İzah:*** *Qonaqlar bir neçə gün bundan əvvəl kəndə gəlmişdilər* cümləsində həm zaman zərfliyi (*bir neçə gün bundan əvvəl*), həm də yer zərfliyi (*kəndə*) işlənmişdir.
*Uşaqlar aşağıda Turqut baba ilə qarşılaşdılar* cümləsində zərfliyin bir məna növü – yer zərfliyi işlənmişdir.
*Əmim babamın yeni əkdiyi ağaclara baxa-baxa sözünə davam etdi* cümləsində zərfliyin bir məna növü – tərzi-hərəkət zərfliyi işlənmişdir.
*Nurani qoca ayağa qalxaraq gələnləri salamladı* cümləsində zərfliyin bir məna növü – tərzi-hərəkət zərfliyi işlənmişdir.
*Mən Qarabağ Universitetində təhsil almaq arzusundayam* cümləsi də tapşırığın şərtini ödəmir.
***Doğru cavab:*** Qonaqlar bir neçə gün bundan əvvəl kəndə gəlmişdilər.

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

Cümlələrin birində feil *"idi"* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir:

A) Babam bizə kənddən sovqat göndərdi.
B) O bu xəbəri eşidəndə hamıdan çox sevindi.
C) Nurəddinin çoxdan gözlədiyi gün gəlib çatdı. (S.S. Axundov)
D) O, nadinc olduğundan müəllimləri təngə gətirmişdi. (S.S. Axundov)
E) Əmiraslan doqquz yaşına çatdıqda atası onu molla yanına oxumağa apardı (S.S. Axundov)

***Mövzu:*** Feil
***Sinif:*** 7

***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
***İzah:*** *O, nadinc olduğundan müəllimləri təngə gətirmişdi* cümləsində *"idi"* köməkçi sözünün (hissəciyinin) qısaldılmış forması (-dı$^4$) feilin xəbər şəklindən (-mış$^4$) sonra işlənmişdir.
Digər nümunələrdəki feillərdə (*göndərdi, sevindi, çatdı, apardı*) isə *"idi"* köməkçi sözü (hissəciyi) işlənməmişdir. -dı$^4$ şəkilçisi feilin başlanğıc formasının üzərinə artırılmış keçmiş zaman şəkilçisidir.
***Doğru cavab:*** O, nadinc olduğundan müəllimləri təngə gətirmişdi. (S.S. Axundov)

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 36 saylı test tapşırığı**

Eyler-Venn diaqramının tələblərini nəzərə alaraq, cümlələrlə bağlı doğru fikirləri müəyyən edin.

I *Təzəcə bulaq başına çatıb süfrə açmışdıq ki, yağış başladı.*
II *Kim sənin səhvlərini göstərirsə, o sənin ən yaxın dostundur.*




1. Həm baş, həm də budaq cümlə feili xəbərlidir.
2. Budaq cümlədə köməkçi nitq hissəsi işlənmişdir.
3. ○⟶□ sxeminə uyğundur.
4. Tərkibindəki sadə cümlələrdən biri qrammatik cəhətdən digərinə tabedir.
5. Baş cümlədə söz birləşməsi ilə ifadə olunmuş cümlə üzvü işlənmişdir.

A) 1, 4 B) 2, 4 C) 1, 2, 3 D) 1, 5 E) 3, 4, 5

***Mövzu:*** Tabeli mürəkkəb cümlələr
***Sinif:*** 9
***Alt-standart:*** 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.
4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** *Təzəcə bulaq başına çatıb süfrə açmışdıq ki, yağış başladı* və *Kim sənin səhvlərini göstərirsə, o sənin ən yaxın dostundur* cümlələri tabeli mürəkkəb cümlədir. Hər iki cümlə ○⟶□ *sxeminə uyğundur*, yəni budaq cümlə baş cümlədən əvvəl işlənib. Hər iki nümunənin *tərkibindəki sadə cümlələrdən biri qrammatik cəhətdən digərinə tabedir*. Buna görə də diaqramın kəsişməsində yazılmalıdır.
*Budaq cümlədə köməkçi nitq hissəsi işlənmişdir* fikrini ikinci cümləyə aid edə bilmərik, çünki həmin nümunənin (*Kim sənin səhvlərini göstərirsə, o sənin ən yaxın dostundur)* budaq cümləsi – *Kim sənin səhvlərini göstərirsə* cümləsidir, burada köməkçi nitq hissəsi işlənməmişdir. *Baş cümlədə söz birləşməsi ilə ifadə olunmuş cümlə üzvü işlənmişdir* fikri diaqramın kəsişməsinə yazıla bilməz, çünki birinci nümunənin baş cümləsində (*yağış başladı*) söz birləşməsi ilə ifadə olunan cümlə üzvü yoxdur.
***Doğru cavab:*** 1, 4

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 33 saylı test tapşırığı**
**C variantı 32 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

Yazılışı ilə tələffüzü ***fərqlənməyən*** sözlərin sırasını müəyyən edin.

A) hətta, qəssab, yeddi
B) asudə, qrafin, pauza
C) palıd, hiddətlə, istəkli
D) diqqət, qastrol, montaj
E) səkkiz, rəqqasə, qabaq

***Mövzu:*** Fonetika
***Sinif:*** 5
***Alt-standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** Bir çox qoşasamitli sözlərin yazılışı ilə tələffüzü fərqlənir. Yanaşı gələn "tt" [td], "kk" [kg], qq [k'q] kimi tələffüz edilir. Məsələn, [hətda], [səkgiz], [rək'qasə], [dik'qət]
Sözlərin sonunda gələn bəzi cingiltili samitlər tələffüz zamanı öz kar qarşılığı ilə əvəz olunur. Məsələn, qəssab [qəssap], qabaq [qabax], palıd [palıt]
Bəzi sözlərin tərkibindəki k hərfi [x'] kimi tələffüz olunur. Məsələn, istəkli [isdəx' li]
-la$^2$ zərf düzəldən şəkilçi [nan], [nən] kimi tələffüz olunur. Məsələn, hiddətlə [hiddətnən]
Bəzi sözlərin tərkibində "o" saiti [a] kimi tələffüz olunur. Məsələn, montaj [mantaj]
*Asudə, qrafin, pauza, yeddi, qastrol* sözlərinin yazılışı ilə tələffüzü fərqlənmir.
*Asudə* sözünün tələffüzündə uzanan sait var: [a:sudə] Lakin bu, fərqli məqam hesab olunmur.
***Doğru cavab:*** asudə, qrafin, pauza

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 34 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

Əvəzliklərdən biri məna növünə görə digərlərindən fərqlənir:

A) biri B) hər kəs C) hərə D) filan E) hamı

***Mövzu:*** Əvəzlik
***Sinif:*** 6
***Alt-standart:*** 4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.
***İzah:*** *Hərə, biri, hamı, hər kəs* qeyri-müəyyən, *filan* isə təyini əvəzlikdir.
***Doğru cavab:*** filan

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 40 saylı test tapşırığı**
**D variantı 31 saylı test tapşırığı**

Hansı nümunədə söz birləşməsi ilə yanaşı, köməkçi nitq hissəsi də işlənmişdir?

A) Qardaşım Gəncədə bir il oxudu.
B) Hamı iclasdan sonra zalı tərk etdi.
C) Gecələr bu mənzərə daha gözəl olurdu.
D) Əsgər sanki olanları sezmişdi.
E) Təbiətin gözəlliyi onu valeh etmişdi.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 7, 8
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir;
***İzah:*** *Qardaşım Gəncədə bir il oxudu, Təbiətin gözəlliyi onu valeh etmişdi* nümunələrində söz birləşməsi işlənsə də, köməkçi nitq hissəsi işlənməmişdir.
*Hamı iclasdan sonra zalı tərk etdi, Əsgər sanki olanları sezmişdi* nümunələrində köməkçi nitq hissəsi işlənsə də, söz birləşməsi işlənməyib.
*Gecələr bu mənzərə daha gözəl olurdu* nümunəsində həm söz birləşməsi *(bu mənzərə)*, həm də köməkçi nitq hissəsi *(daha)* işlənmişdir.
***Doğru cavab:*** Gecələr bu mənzərə daha gözəl olurdu.

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 38 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

Nümunə ilə bağlı doğru fikirləri müəyyən edin.

*Saldı xalısını səhraya min gül,*
*Bəzədi torpağı süsənlə sünbül.*
*Ağacda qönçələr baxdı göz-gözə,*
*Bənzədi qayğısız gülər bir üzə.*
(N. Gəncəvi)

1. Birinci misrada müxtəlif nitq hissələrinə aid omonim sözlər işlənib.
2. İkinci misrada omonimliyi olan köməkçi nitq hissəsi işlənib.
3. “Gülər” sözü sifət və feil kimi işlənən omonimdir.
4. “Üz” sözü omonimlik xüsusiyyətinə malikdir.
5. Bütün nitq hissələrinin həm leksik, həm də qrammatik mənası var.

A) 1, 2, 5 B) 1, 3 C) 1, 2, 4
D) 3, 5 E) 2, 4, 5

***Mövzu:*** Leksika
***Sinif:*** 5, 7
***Alt-standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir;
4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
***İzah:*** Birinci misrada işlənən “sal”, “min”, “gül” sözləri müxtəlif nitq hissələrinə aid omonim sözlərdir. “Sal” sözü feil-isim, “min” sözü say-isim, “gül” sözü isim-feil kimi omonimlik xüsusiyyətinə malikdir.
İkinci misrada ilə (-la$^2$) bağlayıcısı – köməkçi nitq hissəsi işlənib. Bu bağlayıcı qoşma ilə omonimlik xüsusiyyətinə malikdir.
“Gülər” sözü omonim deyil. Nümunədə sifət kimi işlənmişdir, başlanğıc formadadır. Həmin söz feil kimi işləndikdə başlanğıc forması “gül” sözüdür. Həmin sözü feil və sifət kimi işlənən omonim hesab etmək olmaz.
“Üz” sözü isim və feil kimi işlənə bilən omonim sözdür.
***Doğru cavab:*** 1, 2, 4

**A variantı 39 saylı test tapşırığı**
**B variantı 32 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

Cümlələrdə fərqləndirilmiş sözləri nəzərə alaraq, uyğunluğu müəyyən edin.

1. **Elə** bu vaxt uzaqdan bir avtobus göründü.
2. Oğru **elə** bağırdı, doğrunun bağrı yarıldı.

a. İşarə məqsədilə işlənib.
b. Ədatdır.
c. Danışanın ifadə etdiyi fikrə münasibət bildirir.
d. Yalnız qrammatik mənası var.
e. Leksik mənası var.

A) 1 – b, e; 2 – a, d B) 1 – a, b; 2 – c, e
C) 1 – a, e; 2 – b, d D) 1 – b, d; 2 – a, e
E) 1 – c, d; 2 – a, e

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 7
***Alt-standart:*** 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
***İzah:*** *Elə bu vaxt uzaqdan bir avtobus göründü* cümləsində ***elə*** sözü ədatdır, yalnız qrammatik mənası var.
*Oğru* ***elə*** *bağırdı, doğrunun bağrı yarıldı* cümləsində ***elə*** işarə məqsədilə işlədilən əvəzlikdir, leksik mənası var.
Danışanın ifadə etdiyi fikrə münasibət bildirmək isə modal sözlərə məxsus xüsusiyyətdir.
***Doğru cavab:*** 1 – b, d; 2 – a, e

**A variantı 40 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 34 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

Hansı cümlələrdə güman, şübhə bildirən ara söz işlənmişdir?

1. Dünənki fırtına, həqiqətən, çox dəhşətli idi.
2. Bəlkə, hər şeyi zamanın öhdəsinə buraxaq.
3. Doğrusu, uşaqlıq dostumu tanıya bilmədim.
4. Bu, ola bilsin, sonuncu oyundur.
5. Ehtimal ki, sən qalib gələcəksən.

A) 2, 4, 5 B) 1, 4, 5 C) 1, 2
D) 3, 5 E) 2, 3, 4

***Mövzu:*** Ara sözlər
***Sinif:*** 8
***Alt-standart:*** 4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələrindən istifadə edir.
***İzah:*** *Dünənki fırtına, həqiqətən, çox dəhşətli idi* və *Doğrusu, uşaqlıq dostumu tanıya bilmədim* nümunələrində təsdiq bildirən ara sözlər (*həqiqətən, doğrusu*) işlənmişdir. *Bəlkə, hər şeyi zamanın öhdəsinə buraxaq, Bu, ola bilsin, sonuncu oyundur, Ehtimal ki, sən qalib gələcəksən* nümunələrində güman, şübhə bildirən ara sözlər (*bəlkə, ola bilsin, ehtimal ki*) işlənmişdir.
***Doğru cavab:*** 2, 4, 5

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

## Papaq

Dördnəfərlik dəstə dördnala çapırdı. Kazaklar az qalırdı, onları haqlasın. Birdən qarşıda dərin bir uçurum göründü. Atlılar ehtiyatlandılar, lakin kazakların sayca onlardan çox olduğunu güman etdikləri üçün dayanmağın ölümə bərabər olduğunu düşündülər. [1] İrəli getmək də təhlükəli idi: uçurum onları uda bilərdi. <u>Yaxşı təlim görmüş atlar uçurumun üstündən atlanıb o biri taya keçdilər</u>.

Kazaklar isə son anda atlarının başını çəkib dayandılar, bələd olmadıqları bu yerdə özlərini təhlükəyə atmaq mənasız idi.

Dəstə bir həftə öncə məcburən tərk etdiyi Kəsəmən kəndinə yaxınlaşmışdı. Onlar böyük xatadan qurtulmuşdular. Ancaq Oruc ağanın ürəyi qan ağlayır, dərd içini yandırırdı. Desinmi, deməsinmi? Lakin qürurundan dillənmirdi.

İsrafil birdən atasını yeni görmüş kimi təəccüblə ona baxdı. Həyəcanla soruşdu:

– Ağam, papağın hanı? [2]

Oruc ağa kədərli halda:

– Ağ yalda güllə yerə saldı, – dedi.

Araya soyuq sükut *çökdü*[1]. Kəramin fikirli-fikirli gəldiyi yollara boylanması atası İskəndərin gözündən yayınmadı. Sükutun soyuq buzlarını İsrafil *parçaladı*[2]:

– Mən gedib gətirərəm. Amma sabah. İndi ora getmək təhlükəlidir.

Oruc ağanı elə bil ildırım vurdu. [3] Bu da onun öyündüyü, güvəndiyi oğlu! Bir xeyli heç kəs dinmədi. Nəhayət, Oruc ağa dilləndi:

– Yaxşı, siz gedin!

– Bəs sən? – İsrafil soruşdu.

– Elimizin adətidir, oğul. Kişinin papağı başında olar. Demirsən, sabah gətirərəm? Mən də sabah evə gedərəm.

Dəstədəkilər Oruc ağanın inadından dönmədiyinin dəfələrlə şahidi olduqları üçün susdular.

Qəfildən at *ayaqlarının*[3] tappıltısı eşidildi. Dərəni toz-duman bürüdü. Baxışlar Kəramin getdiyi səmtə – Ağ yala dikildi. [4]

Kərəmin papağın dalınca getdiyini anlayan İsrafil sanki qəflət yuxusundan ayıldı. Çevik bir hərəkətlə atının belinə sıçrayıb Kərəmin arxasınca çapdı.

İsrafil Ağ yala çatanda gördü ki, Kərəm güllə kimi gəlir, papaq da əlində. Kazaklar da onu ▲ *təqib edirlər.* O özünü itirmədən yaxınlıqdakı kolluqda *gizləndi*[4] və kazakların diqqətini yayındırmaq üçün dalbadal atəş açdı. Kərəmə də elə bu, lazım idi. Atını çapıb *uzaqlaşdı*[5]. [5]

Gənclər kişilərin yanına qoşa gəldilər. Kərəm yəhərdən yerə sıçrayıb papağı Oruc ağaya verdi. Kişi dilucu ■ *dil-ağız elədi.*

İsrafil tez dilləndi:

– Bilirsiniz, nə elədi? Kazakların onu tutmaq üçün atdıqları kəməndi xəncərlə göydə doğradı.

Oğlunun hünərindən xəbərsiz olan Oruc ağa onu tərs-tərs süzdü. İskəndərin isə ●*ürəyi böyüdü*, fəxrlə oğlu Kərəmə baxdı.

**A variantı 41 saylı test tapşırığı**
**B variantı 45 saylı test tapşırığı**
**C variantı 43 saylı test tapşırığı**
**D variantı 44 saylı test tapşırığı**

Mətnə əsasən Oruc ağa ilə bağlı doğru fikri müəyyən edin.

A) Papağı Ağ yalda düşüb qaldığı üçün iztirab keçirir.
B) Papaqla geri qayıdan Kərəmi böyük şadyanalıqla qarşılayır.
C) Oğlunun özünü təhlükəyə atmasına razı olmur.
D) Oğlunun son hərəkəti ilə qürur duyur.
E) Dəstənin təqibdən xilas olunmasının səbəbkarıdır.

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 6
***Alt-standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.
***İzah:*** Oruc ağa papağı Ağ yalda düşüb qaldığı üçün iztirab keçirir.
Oğlunun Kərəmin arxasınca getməsi və Kərəmlə birgə geri qayıtması onun ürəyincə olmadı və o, oğlu ilə qürur duymadı.
Papaqla geri qayıdan Kərəmə dilucu dil-ağız etməklə kifayətləndi.
Təhlükəli olduğu üçün oğlunun həmin gün Ağ yala getmək istəmədiyini eşidəndə çox sarsıldı.
Dəstənin təqibdən xilas olunmasının səbəbi yaxşı təlim görmüş atlar və kazakların bu ərazilərə yaxşı bələd olmamaları idi.
***Doğru cavab:*** Papağı Ağ yalda düşüb qaldığı üçün iztirab keçirir.

**A variantı 42 saylı test tapşırığı**
**B variantı 41 saylı test tapşırığı**
**C variantı 45 saylı test tapşırığı**
**D variantı 42 saylı test tapşırığı**

Mətndə üzərində rəqəm yazılmış sözlər əsasında cədvəldəki doğru fikirləri müəyyən edin.

| | ***Həqiqi mənadadır*** | ***Məcazi mənadadır*** | ***İfadənin mətndəkindən fərqli mənada (həqiqidirsə, məcazi; məcazidirsə, həqiqi) cümlədə işlədilməsi*** |
|---|---|---|---|
| 1. | | √ | Suyun dibinə çökmüş lil təbəqəsi onun içməli olmadığını göstərirdi. |
| 2. | | √ | İncə bir riqqət Rübabənin könlünü parçaladı. (Mir Cəlal) |
| 3. | √ | | Futbol oynadığı üçün ayaqları sızıldayırdı. |
| 4. | √ | | Dahilərin qüdrəti sözlərinin ruhunda gizlənir. |
| 5. | √ | | O getdikcə yazı-pozudan uzaqlaşır, məişət problemlərinin içində itib-batırdı. |

A) 1, 2, 4 B) 2, 3, 5 C) 1, 4, 5
D) 1, 2, 3 E) 3, 4, 5

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 6
***Alt-standart:*** 2.1.2. Sözləri həqiqi və məcazi mənada işlənməsinə görə fərqləndirir.
***İzah:*** *Çökmək* sözü mətndə məcazi *(Araya soyuq sükut çökdü)*, nümunədə isə həqiqi (*Suyun dibinə çökmüş lil təbəqəsi onun içməli olmadığını göstərirdi)* mənada işlənib. *Gizləndi* sözü mətndə həqiqi *(kolluqda gizləndi)*, nümunədə isə məcazi (*Dahilərin qüdrəti sözlərinin ruhunda gizlənir)* mənada işlənib. *Uzaqlaşdı* sözü mətndə həqiqi (*Atını çapıb uzaqlaşdı),* nümunədə isə məcazi (*O*

*getdikcə yazı-pozudan uzaqlaşır, məişət problemlərinin içində itib-batırdı)* mənada işlənib.
*Parçalamaq* sözü mətndə məcazi (*Sükutun soyuq buzlarını İsrafil parçaladı)* mənada işlənsə də, nümunədə də məcazi (*İncə bir riqqət Rübabənin könlünü parçaladı*) mənada işlənib.
*Ayaq* sözü mətndə həqiqi mənada işlənsə də, nümunədə də həqiqi *(Futbol oynadığı üçün ayaqları sızıldayırdı)* mənada işlənib.
***Doğru cavab:*** 1, 4, 5

**A variantı 43 saylı test tapşırığı**
**B variantı 44 saylı test tapşırığı**
**C variantı 42 saylı test tapşırığı**
**D variantı 41 saylı test tapşırığı**

Mətnə əsasən səbəbini müəyyən etmək mümkündür:

1. Dəstənin təqib edilməsinin
2. İsrafilin atasına təəccüblə baxmasının
3. Təqibin sona yetməsinin
4. Dəstənin kəndi məcburən tərk etməsinin
5. Kərəmin Ağ yala getməsinin

A) 2, 3, 5 B) 1, 2, 4 C) 3, 4, 5
D) 1, 4, 5 E) 1, 2, 3

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 9
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** Dəstənin təqib edilməsinin və dəstədəkilərin kəndi məcburən tərk etmələrinin səbəbini müəyyən etmək mümkün deyil.
İsrafilin atasına təəccüblə baxmasının səbəbi Oruc ağanın papağının başında olmaması idi.
Təqibin sona yetməsinin səbəbi kazakların uçurum olan əraziyə bələd olmamaları və yaxud İsrafilin güllə ataraq kazakların diqqətini yayındırması idi.
Kərəmin Ağ yala getməsinin səbəbi Oruc ağanın papağının orada düşüb qalması idi.
***Doğru cavab:*** 2, 3, 5

**A variantı 44 saylı test tapşırığı**
**B variantı 42 saylı test tapşırığı**
**C variantı 44 saylı test tapşırığı**
**D variantı 43 saylı test tapşırığı**

Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *Doğrudur* | *Yanlışdır* | *Ehtimaldır* |
|---|---|---|
| 1. Kazaklar uçurum olan ərazini yaxşı tanımırdılar. 2. Kazaklar dəstədəkilərin papağa görə qayıdacaqlarını bilirdilər. | 3. Dəstədəkilər uçuruma düşməkdən xilas oldular. 4. Oruc ağa papağının başında olmadığının fərqində deyildi. | 5. Kazaklar dəstənin üzvlərindən sayca çox idi. 6. Kazaklar dəstədəkiləri ələ keçirə bilmədilər. |

A) 1, 2, 3 B) 1, 4, 5 C) 1, 2, 4, 6
D) 3, 4, 5, 6 E) 2, 3, 5

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 9
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** Kazaklar uçurum olan ərazini yaxşı tanımırdılar. Dəstədəkilər uçuruma düşməkdən yaxşı təlim görmüş atlar vasitəsilə xilas oldular. Kazaklar dəstədəkiləri ələ keçirə bilmədilər.
Oruc ağa papağının başında olmadığının fərqində idi, hətta buna görə ürəyi qan ağlayır, dərd içini yandırırdı.
*Kazaklar dəstədəkilərin papağa görə qayıdacaqlarını bilirdilər* və *Kazaklar dəstənin üzvlərindən sayca çox idi* fikirləri ehtimaldır.
***Doğru cavab:*** 1, 4, 5

**A variantı 45 saylı test tapşırığı**
**B variantı 43 saylı test tapşırığı**
**C variantı 41 saylı test tapşırığı**
**D variantı 45 saylı test tapşırığı**

*"Onun gedişi acı bir faciə kimi Oruc ağanın sümüyünə, iliyinə işləyib onu çox sarsıtdı"* cümləsi mətndəki nömrələnmiş hansı çərçivənin yerinə artırıla bilər?

A) 2 B) 1 C) 3 D) 5 E) 4

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 9
***Alt-standart:*** 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
***İzah:*** *"Onun gedişi acı bir faciə kimi Oruc ağanın sümüyünə, iliyinə işləyib onu çox sarsıtdı"* cümləsi mətndəki 4-cü boşluğun yerinə uyğun gəlir. Mətnin məzmunundan anlaşılır ki, "Onun gedişi" dedikdə Kərəmin Ağ yala getməsi nəzərdə tutulur.
***Doğru cavab:*** 4

***46 – 50 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**A variantı 46 saylı test tapşırığı**
**B variantı 46 saylı test tapşırığı**
**C variantı 46 saylı test tapşırığı**
**D variantı 46 saylı test tapşırığı**
Mətndə əvvəlində işarə qoyulmuş ifadələrin kontekstə görə qarşılığını (ifadə etdiyi mənanı) müəyyən edib yazın.

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 9
***Alt-standart:*** 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
***Ehtimal olunan cavablar:***
▲ təqib etmək – birinin izini tutub dalınca getmək, izləmək, ardınca getmək, dalınca getmək və s.
■ dil-ağız etmək – kiməsə razılıq bildirmək üçün xoş sözlər demək, minnətdarlıq etmək, öz təşəkkürünü bildirmək, öz razılığını bildirmək, təşəkkür etmək, razılıq etmək və s.
● ürəyi böyümək – fərəhlənmək, sevinmək, ürəyi dağa dönmək, ürəyi dağ boyda olmaq, hədsiz sevinmək və s.

**A variantı 47 saylı test tapşırığı**
**B variantı 47 saylı test tapşırığı**
**C variantı 47 saylı test tapşırığı**
**D variantı 47 saylı test tapşırığı**
Mətnə əsasən cədvəli tamamlayın.

| ***Obrazların xarakterik xüsusiyyəti*** | |
|---|---|
| *Oruc ağa* | |
| *Kərəm* | |

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 6
***Alt-standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədilə mühüm məqamları vurğulayır.
***Ehtimal olunan cavablar:***

| ***Obrazların xarakterik xüsusiyyəti*** | |
|---|---|
| *Oruc ağa* | qürurlu, inadkar (inad edən), tərs, məğrur, el adətinə sadiq, dediyindən dönməyən, və s. |
| *Kərəm* | cəsarətli, cəsur, cürətli, igid, ürəkli, qoçaq, qorxmaz, düşüncəli, fədakar, mərd və s. |

**A variantı 48 saylı test tapşırığı**
**B variantı 48 saylı test tapşırığı**
**C variantı 48 saylı test tapşırığı**
**D variantı 48 saylı test tapşırığı**
Mətnə əsasən doğru fikri seçin (√) və seçiminizi əsaslandırın.

☐ Papağın Oruc ağaya gətirilməsində yalnız Kərəmin rolu var.

☐ Papağın Oruc ağaya gətirilməsində İsrafilin də rolu var.

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 9
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal olunan cavablar:***
[√] Papağın Oruc ağaya gətirilməsində İsrafilin də rolu var.
***Fikrin əsaslandırılması:***
*Papağı Oruc ağaya Kərəm versə də, onu kazakların təqibindən İsrafilin dalbadal açdığı atəş xilas edir;*
*Kazakların təqib etdiyi Kərəmi təhlükədən İsrafilin açdığı atəş qurtarır. Kazaklardan qurtulan Kərəm papağı Oruc ağaya gətirib verir* və s. məzmunlu cümlələr

**A variantı 49 saylı test tapşırığı**
**B variantı 49 saylı test tapşırığı**
**C variantı 49 saylı test tapşırığı**
**D variantı 49 saylı test tapşırığı**
Altından xətt çəkilmiş cümləni mətnin səciyyəvi üslubi xüsusiyyətlərinə uyğun zənginləşdirməklə yenidən yazın.

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 11
***Alt-standart:*** 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
***Ehtimal olunan cavablar:***
- Yaxşı təlim görmüş atlar uçurumun üstündən *quş kimi süzüb* o biri taya keçdilər.
- Yaxşı təlim görmüş atlar uçurumun üstündən *ildırım sürətilə* atlanıb o biri taya keçdilər.
- Yaxşı *dərs almış* atlar uçurumun üstündən atlanıb o biri taya keçdilər.
- Yaxşı təlim görmüş atlar *öz qurbanını gözləyən* uçurumun üstündən atlanıb o biri taya keçdilər və s.

- Yaxşı təlim görmüş atlar *əjdaha kimi ağzını açmış* uçurumun üstündən atlanıb o biri taya keçdilər.

**A variantı 50 saylı test tapşırığı**
**B variantı 50 saylı test tapşırığı**
**C variantı 50 saylı test tapşırığı**
**D variantı 50 saylı test tapşırığı**
*“Cəsarət təhlükəli vəziyyətdə üzə çıxır”* fikrini mətnlə əlaqələndirib fikrinizi yazın.

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 8
***Alt-standart:*** 3.1.2. Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir.
***Ehtimal olunan cavablar:*** *Oruc ağa üçün namus məsələsi olan papağı gətirmək həmin an çox təhlükəli idi. Lakin Kərəm cəsarət nümayiş etdirərək özünü təhlükəyə atıb, papağı gətirməyə nail olur;*
*Kərəm Ağ yala getməyin təhlükəli olduğunu bildiyi halda, papağın arxasınca ora gedir, papağı Oruc ağa gətirir* məzmunlu və s. fikirlər;
Və ya
*İsrafil Ağ yala getməyin təhlükəli olduğunu bildiyi halda, Kərəmin arxasınca ora gedir və Kərəmi təhlükədən xilas edir;*
*İsrafil də cəsarət nümayiş etdirdi. O, Kərəmin papağın arxasınca getdiyini anlayan kimi çevik hərəkətlə Ağ yala üz tutur. Kərəmi kazakların təqibindən xilas edir* məzmunlu və s. fikirlər

***51 – 60 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

### Qeyri-adi imperatorluq

Dünyada mövcud olan ölkələrin ▲ *sayı* digər ölkələr tərəfindən tanınıb-tanınmamasından asılı olaraq artıb-azalır. Cırtdan dövlətlərin də çoxu bu qəbildəndir. Onların əsas hissəsi çox qədimdən Avropa qitəsində yerləşdiyi halda, bəziləri sonralar dünyanın müxtəlif qitələrində meydana çıxmışdır.

Atlantium imperatorluğu Avstraliyanın Sidney şəhərindəki bir mənzildə Corc Kuinkşank tərəfindən qurulan mikrodövlətdir. Bəs bu dövlət necə yarandı?

Corc Kuinkşank 1981-ci ildə Sidneydə yaşayan üç əmisi oğlu ilə <u>müştərək</u> bir dövlət yaratmağa qərar verir. **1.** Yeniyetmələr ilk olaraq Sidneydə 10 kvadratmetrlik bir mənzil aldılar. Bu, ölkənin ilk paytaxtı idi. Corc dövlət başçısı seçilərək imperator oldu. Bir əmisi oğlu isə ölkənin ilk baş naziri vəzifəsinə gətirildi. Daha sonra liseydən iki dostu da yüksək dövlət postlarını tutdu. 1990-cı ildə universiteti bitirdikdən sonra dostlar arasında <u>anlaşılmazlıq</u> meydana gəldi.

Atlantiumun digər qurucularının ölkəyə maraqları getdikcə azaldığı halda, Corc Kuinkşank tutduğu yoldan .......... . O, bayraq və gerb yaratdı, pul vahidini dövriyyəyə buraxdı. **2.** İli on aydan ibarət olan təqvim tərtib etdi.

**3.** Atlantiumun dünyanın dörd bir tərəfindən olan üç mindən artıq vətəndaşı var. **4.** Bu vətəndaşların <u>əksəriyyəti</u> heç bircə dəfə də Atlantiumda olmayıb. Atlantium vətəndaşı olmaq üçün internet vasitəsilə müraciət kifayətdir və burada yaşamaq məcburi deyil. Ölkənin vətəndaşı ola bilmək üçün sadəcə 25 dollar ödəmək lazımdır. Buradan və ölkənin pullarının internet vasitəsilə satışından əldə edilən gəlir Atlantiumun ehtiyaclarına sərf olunur.

Dövlətin siyasi həyatında mühüm şəxs olan Corc Kuinkşank 2008-ci ildə Sidneydən 350 km uzaq çöldə 80 hektarlıq ərazi satın almış və buranı ölkəsinin paytaxtı elan etmişdir. Paytaxt Konkordiyada hal-hazırda poçt və müxtəlif tikililər var.

**5.** İmperator şənbə və bazar günləri paytaxta gəlir, siyasi bəyanatlar hazırlayır. Başqa mikrodövlətlərin liderləri ilə məktublaşır. Atlantiumun ABŞ, Sinqapur və İsveçrədəki təmsilçiləri ilə ölkədaxili məsələləri müzakirə edir. Bir sıra ölkələrin nümayəndələri ilə mütəmadi olaraq diplomatik görüşlərdə iştirak edir. Hər ilin oktyabr ayında Atlantiumun tərəfdarları, vətəndaşları və təmsilçiləri ilə görüşür.

Ölkə hələ də rəsmi olaraq tanınmasa da, həftəsonları Atlantiumda insan ■ *dalğasını* müşahidə etmək olar. Əsl Avstraliya faunası ilə tanış olmaq istəyən digər ölkə vətəndaşları Konkordiyaya axın edirlər. Onların <u>bələdçisi</u> də elə imperatorun özüdür.

**A variantı 51 saylı test tapşırığı**
**B variantı 53 saylı test tapşırığı**
**C variantı 53 saylı test tapşırığı**
**D variantı 52 saylı test tapşırığı**

Mətnin hissələrini genişləndirə bilən fikirlərə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş 2. Əsas hissə 3. Nəticə

a. Turistlər mənzil kirayələyib bir neçə gün burada qala da bilərlər.
b. Corc ölkəsini genişləndirmək üçün bir veb-sayt da yaratdı.
c. O, heyvanat aləmi ilə maraqlanan qonaqlara səmimi və sadə insan təsiri bağışlayır.
d. Yüksək vəzifələrin bölgüsü həyata keçirildi.
e. Bu kiçik ölkələrin adı çox eşidilməsə də, xəritədə qeyd olunmasa da, dünya iqtisadiyyatında müəyyən rol oynayır.

A) 1 – a, b; 2 – d; 3 – c, e
B) 1 – e; 2 – b, d; 3 – a, c
C) 1 – a, e; 2 – b, c; 3 – d
D) 1 – b, c; 2 – d; 3 – a, e
E) 1 – e; 2 – a, b; 3 – c, d

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 9
***Alt-standart:*** 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
***İzah:*** *Bu kiçik ölkələrin adı çox eşidilməsə də, xəritədə qeyd olunmasa da, dünya iqtisadiyyatında müəyyən rol oynayır* nümunəsi ilə mətnin giriş hissəsini; *Corc ölkəsini genişləndirmək üçün bir veb-sayt da yaratdı* və *Yüksək vəzifələrin bölgüsü həyata keçirildi* nümunələri ilə əsas hissəsini; *Turistlər mənzil kirayələyib bir neçə gün burada qala da bilərlər* və *O, heyvanat aləmi ilə maraqlanan qonaqlara səmimi və sadə insan təsiri bağışlayır* nümunələri ilə nəticəni genişləndirmək olar.
***Doğru cavab:*** 1 – e; 2 – b, d; 3 – a, c

**A variantı 52 saylı test tapşırığı**
**B variantı 55 saylı test tapşırığı**
**C variantı 55 saylı test tapşırığı**
**D variantı 55 saylı test tapşırığı**

Cədvələ əsasən müəyyən edin.

| ***Mətndə məlumat var*** | ***Mətndə məlumat yoxdur*** |
|---|---|
| 1. Atlantiumun ilk paytaxtının sahəsi on kvadratmetr idi.<br>2. Corc Kuinkşank universitetin hüquq fakültəsinin məzunudur. | 3. Atlantiumda vətəndaşlar xüsusi vəsiqə ilə təmin olunurlar.<br>4. Atlantiumun vətəndaşlığını almaq üçün pul ödəmək lazımdır.<br>5. Konkordiya əhalisi sənətkarlıqla məşğul olur. |

A) 2, 4, 5 B) 1, 3, 5 C) 1, 2, 3
D) 2, 3, 4 E) 1, 4, 5

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 9
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** *Atlantiumun ilk paytaxtının sahəsi 10 kvadratmetr idi* və *Atlantiumun vətəndaşlığını almaq üçün pul ödəmək lazımdır* fikirləri mətndə öz əksini tapmışdır.
*Corc Kuinkşank universitetin hüquq fakültəsinin məzunudur, Atlantiumda vətəndaşlar xüsusi vəsiqə ilə təmin olunurlar; Konkordiya əhalisi sənətkarlıqla məşğul olur* fikirlərinə isə mətndə rast gəlinmir.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 53 saylı test tapşırığı**
**B variantı 52 saylı test tapşırığı**
**C variantı 52 saylı test tapşırığı**
**D variantı 51 saylı test tapşırığı**

Mətndə altından xətt çəkilmiş sözlərdən heç birinin şərhinə uyğun ***deyil***:

A) çoxluq, ən böyük hissə
B) birini əvəz edən, onun adından danışan
C) bir-birini başa düşməmə, yanlış anlama
D) yol göstərən
E) ümumi, ortaqlı, birgə

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 8
***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir.
***İzah:*** *Bir-birini başa düşməmə, yanlış anlama* – anlaşılmazlıq; *ümumi, ortaqlı, birgə* – müştərək; *çoxluq, ən böyük hissə* – əksəriyyət; *yol göstərən* – bələdçi sözünün şərhinə uyğundur. *Birini əvəz edən, onun adından danışan* ifadəsi mətndə altından xətt çəkilmiş heç bir sözün şərhinə uyğun deyil.
***Doğru cavab:*** birini əvəz edən, onun adından danışan

**A variantı 54 saylı test tapşırığı**
**B variantı 51 saylı test tapşırığı**
**C variantı 54 saylı test tapşırığı**
**D variantı 54 saylı test tapşırığı**

Mətnə əsasən doğru fikirləri müəyyən edin.

1. Cırtdan dövlətlərin hamısı Avropa qitəsində yerləşmir.
2. Corc Kuinkşank həftənin bütün günlərini Konkordiyada keçirir.
3. Atlantiumun paytaxtında üç mindən artıq insan məskunlaşmışdır.
4. Konkordiya başqa ölkələrin vətəndaşlarının diqqətini cəlb edir.
5. Ölkənin ehtiyacları turizm hesabına ödənilir.

A) 2, 4 B) 1, 2, 3 C) 1, 4
D) 3, 4, 5 E) 1, 5

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 9
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** Cırtdan dövlətlərin hamısı Avropa qitəsində yerləşmir. Onların əsas hissəsi çox qədimdən Avropa qitəsində yerləşdiyi halda, bəziləri sonralar dünyanın müxtəlif qitələrində meydana çıxmışdır.
Corc Kuinkşank bütün vaxtını Konkordiyada keçirmir, yalnız həftəsonları paytaxta gəlir.
Atlantiumun üç mindən artıq vətəndaşı olsa da, onların əksəriyyəti heç bir dəfə də Atlantiumda olmayıb.
Atlantium başqa ölkələrin vətəndaşlarının diqqətini cəlb edir. Həftəsonları Atlantiumda insan dalğasını müşahidə etmək olar.
Ölkənin ehtiyacları turizm hesabına ödənilmir. Ölkənin vətəndaşı ola bilmək üçün ödənilən 25 dollar və ölkənin pullarının internet vasitəsilə satışından qazanılan gəlir Atlantiumun ehtiyaclarına sərf olunur.
***Doğru cavab:*** 1, 4

**A variantı 55 saylı test tapşırığı**
**B variantı 54 saylı test tapşırığı**
**C variantı 51 saylı test tapşırığı**
**D variantı 53 saylı test tapşırığı**

Əvvəlində rəqəm yazılmış hansı cümlələr mətndən çıxarılsa, məzmuna ***xələl gəlməz***?

A) 2, 5 B) 3, 4, 5 C) 1, 4
D) 1, 2, 3 E) 2, 4

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 6
***Alt-standart:*** 3.1.3. Mətnin hissələrini, abzaslarını əlaqələndirir.
***İzah:*** *İli on aydan ibarət olan təqvim tərtib etdi, Bu vətəndaşların əksəriyyəti heç bircə dəfə də Atlantiumda olmayıblar* cümlələrini mətndən çıxarsaq, məzmuna xələl gəlməz.
Digər nömrələnmiş cümlələr mətndən çıxarılsa, məzmuna xələl gələr.
***Doğru cavab:*** 2, 4

***56 – 60 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**A variantı 56 saylı test tapşırığı**
**B variantı 56 saylı test tapşırığı**
**C variantı 56 saylı test tapşırığı**
**D variantı 56 saylı test tapşırığı**

Mətndə nöqtələrin yerinə uyğun gələn ifadə yazmaqla cümləni tamamlayın.

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 11
***Alt-standart:*** 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
***Ehtimal olunan cavablar:*** *geri çəkilmədi, geri dönmədi, vaz keçmədi, dönmədi, qayıtmadı, əl çəkmədi, geri addım atmadı* və s.

**A variantı 57 saylı test tapşırığı**
**B variantı 57 saylı test tapşırığı**
**C variantı 57 saylı test tapşırığı**
**D variantı 57 saylı test tapşırığı**

Mətnə əsasən cədvəli doldurun.

| ***Müddəa*** | ***Faktlar*** |
|---|---|
| | İmperator siyasi bəyanatlar hazırlayır. |
| | İmperator bir sıra ölkələrin nümayəndələri ilə tez-tez diplomatik görüşlərdə iştirak edir. |
| | |

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 10
***Alt-standart:*** 2.2.2. Mətnin hissələrini tezislər şəklində ifadə edir.
***Ehtimal olunan cavablar:***

| *Müddəa* | *Faktlar* |
|---|---|
| ● İmperator dövlətin siyasi həyatında yaxından iştirak edir;<br>● İmperator dövlətdə mühüm şəxsdir;<br>● İmperator mühüm səlahiyyətləri olan şəxsdir;<br>● İmperator dövlətində mühüm rol oynayır və s. | İmperator siyasi bəyanatlar hazırlayır. |
| | İmperator bir sıra ölkələrin nümayəndələri ilə tez-tez diplomatik görüşlərdə iştirak edir. |
| | Mikrodövlətlərin liderləri ilə məktublaşır. |
| | Atlantiumun ABŞ, Sinqapur və İsveçrədəki təmsilçiləri ilə ölkədaxili məsələləri müzakirə edir və s. |

**A variantı 58 saylı test tapşırığı**
**B variantı 58 saylı test tapşırığı**
**C variantı 58 saylı test tapşırığı**
**D variantı 58 saylı test tapşırığı**

*"Atlantium vətəndaşı olmaq asandır"* fikrini təsdiq edən iki fakt yazın.

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 6
***Alt-standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədilə mühüm məqamları vurğulayır.

1. Atlantiumun vətəndaşı olmaq üçün internet vasitəsilə müraciət kifayətdir.
2. Ölkənin vətəndaşı olmaq üçün sadəcə 25 dollar ödəmək lazımdır.
3. Atlantiumun vətəndaşı olmaq üçün orada yaşamaq mühüm deyil.

**A variantı 59 saylı test tapşırığı**
**B variantı 59 saylı test tapşırığı**
**C variantı 59 saylı test tapşırığı**
**D variantı 59 saylı test tapşırığı**

Mətndə əvvəlində işarələr qoyulmuş ifadələr əsasında cədvəli doldurun.

| | *İnformativ funksiyadadır (√)* | *Poetik funksiyadadır (√)* | *Terminoloji funksiyadadır (√)* | *İfadənin mətndəkindən fərqli funksiyada cümlədə işlədilməsi* |
|---|---|---|---|---|
| ▲ | | | | |
| ■ | | | | |

***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqləndirir.

***Ehtimal olunan cavablar:***

| | *İnformativ funksiyadadır (√)* | *Poetik funksiyadadır (√)* | *Terminoloji funksiyadadır (√)* | *İfadənin mətndəkindən fərqli funksiyada cümlədə işlədilməsi* |
|---|---|---|---|---|
| ▲ | √ | | | *Say əşyanın miqdarını bildirən əsas nitq hissəsidir; Onluq say sistemində ən kiçik sadə ədəd ikidir*<br><br>*Qeyd: Say sözünün mətndəkindən fərqli funksiyada işləndiyi istənilən cümlə.* |
| ■ | | √ | | *Dalğa sözünün mətndəkindən fərqli funksiyada (terminoloji və ya informativ) işləndiyi istənilən cümlə: lektromaqnit dalğası, işıq dalğası, səs dalğası, dəniz dalğası* və s. |

**A variantı 60 saylı test tapşırığı**
**B variantı 60 saylı test tapşırığı**
**C variantı 60 saylı test tapşırığı**
**D variantı 60 saylı test tapşırığı**

Əsas və çərçivədəki mətnlər əsasında Eyler-Venn diaqramını doldurun.

> Amerikada yaşayan 13 yaşlı Robert Medison öz otağını ayrı bir dövlət elan etməklə Talossa krallığını yaratmışdır. İlk illər onun dövlətinin vətəndaşları yalnız bir neçə dostu olmuş, sonralar sayları artmışdır. Bu ölkə özünəməxsus talos dilini yaratmağa və hətta bir neçə dövlət quruluşunu: monarxiya, demokratiya, kommunizmi sınaqdan keçirməyə də imkan tapmışdır. Talossa rəsmi olaraq tanınmamışdır.




***Mövzu:*** Mətn üzərində iş
***Sinif:*** 6

***Alt-standart:*** 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.

***Ehtimal olunan cavablar:***

Atlantium imperatorluğu:

- *Yaradıcısı Corc Kuinkşankdır;*
- *Avstraliyada yaranıb;*
- *Torpağı var;*
- *Ölkənin paytxatının sahəsi 80 hektardır;*
- *Digər ölkə vətəndaşlarının diqqətini cəlb edir;*
- *Təqvimi var;*
- *Pulu var;*
- *Vətəndaşlığını qəbul etmək mümkündür;*
- *İmperator ölkədə mühüm şəxsdir;*
- *Paytaxtı var və s.*

Ortaq cəhətlər:

- *Yeniyetmə tərəfindən yaradılıb.*
- *Dövlətin vətəndaşlarının sayı əvvəlcə bir neçə nəfər olmuş, sonralar sayları artmışdır.*
- *Dostlar ölkənin vətəndaşları olublar.*
- *Rəsmi olaraq tanınmır.*

Talossa krallığı:

- *Yaradıcısı Robert Medisondur;*
- *Amerikada yaranıb;*
- *Bir neçə dövlət quruluşunu sınaqdan keçirib;*
- *Monarxiya (demokratiya; kommunizm) quruluşunu sınaqdan keçirib;*
- *Öz dili var və s.*

## Riyaziyyat

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 72 saylı test tapşırığı**
**C variantı 70 saylı test tapşırığı**
**D variantı 63 saylı test tapşırığı**

Mərkəzi $O$ (3; 10) nöqtəsində olan və $B$ (3; 8) nöqtəsindən keçən çevrənin tənliyini göstərin.

A) $(x+8)+(y+3)^2=11$

B) $(x+3)^2+(y+10)^2=4$

C) $(x-3)^2+(y-8)^2=16$

D) $(x-3)^2+(y-9)^2=53$

E) $(x-3)^2+(y-10)^2=4$

***Mövzu:*** Vektorlar. Koordinatlar metodu

***Sinif:*** 9

***Alt-standart:*** 3.2.3. Verilmiş iki nöqtə arasındakı məsafə düsturunu bilir, mərkəzinin koordinatlarına və radiusuna görə çevrənin tənliyini yazır.

***İzah:*** Məlumdur ki, çevrənin tənliyi $(x-a)^2+(y-b)^2=r^2$ şəklində yazılır. Burada $(a;b)$ - çevrənin mərkəzi, r isə radiusdur. Onda mərkəzi $O$(3; 10) olan çevrənin tənliyi $(x-3)^2+(y-10)^2=r^2$ olar. $B$ (3; 8) nöqtəsi çevrənin üzərində yerləşdiyinə görə çevrənin tənliyini ödəyir. Onda

$(3-3)^2+(8-10)^2=r^2$

$r^2=4$

Beləliklə, çevrənin tənliyi $(x-3)^2+(y-10)^2=4$ olar.

***Doğru cavab:*** $(x-3)^2+(y-10)^2=4$

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 70 saylı test tapşırığı**
**C variantı 73 saylı test tapşırığı**
**D variantı 68 saylı test tapşırığı**

$y=3x-7$ və $y=5x-13$ düz xətlərinin kəsişmə nöqtəsinin koordinatları hasilini tapın.

A) 9 B) 3 C) 5 D) 1 E) 6

***Mövzu:*** Funksiyalar və qrafiklər

***Sinif:*** 7

***Alt-standart:*** 2.2.2. Birdəyişənli xətti tənliyi, modul işarəsi daxilində dəyişəni olan tənliyi və ikidəyişənli iki xətti tənliklər sistemini həll edir.

***İzah:*** Xətti funksiyaların kəsişmə nöqtəsi onların ortaq nöqtəsi olduğundan hər iki düz xəttin tənliyini ödəyir. Kəsişmə nöqtəsinin koordinatlarını tapmaq üçün verilən tənlikləri birgə həll etmək lazımdır:

$$\begin{cases} y=3x-7 \\ y=5x-13 \end{cases} \Rightarrow 3x-7=5x-13 \Rightarrow 2x=6 \Rightarrow x=3 \Rightarrow y=2$$

Onda funksiyaların kəsişmə nöqtəsi $(3;2)$ olar.

Kəsişmə nöqtəsinin koordinatları hasili $3\cdot 2=6$ olar.

***Doğru cavab:*** 6

**A variantı 63 saylı test tapşırığı**
**B variantı 67 saylı test tapşırığı**
**C variantı 67 saylı test tapşırığı**
**D variantı 66 saylı test tapşırığı**

$5^{x^2-2x}=125$ tənliyinin kiçik kökünü tapın.
A) –1 B) 0 C) –3 D) –2 E) 1

***Mövzu:*** Üstlü, loqarifmik tənlikləri və bərabərsizliklər
***Sinif:*** 10
***Alt-standart:*** 2.3.2. Üstlü, loqarifmik tənlikləri və bərabərsizlikləri həll edir.
***İzah:***
$5^{x^2-2x}=125$
$5^{x^2-2x}=5^3$
$x^2-2x=3$
$x^2-2x-3=0$
$x_1=-1;\ \ x_2=3$
Tənliyin kiçik kökü $x_1=-1$ olar.
***Doğru cavab:*** –1

**A variantı 64 saylı test tapşırığı**
**B variantı 66 saylı test tapşırığı**
**C variantı 69 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

$\log_3\frac{9}{5}+\log_3 5$ ifadəsinin qiymətini tapın.
A) 0 B) 9 C) 5 D) 3 E) 2

***Mövzu:*** Üstlü və loqarifmik funksiyalar
***Sinif:*** 10
***Alt-standart:*** 2.2.7. Ədədin loqarifminin tərifini, loqarifmləmə qaydalarını bilir və onları tətbiq edir.
***İzah:*** $\log_3\frac{9}{5}+\log_3 5=\log_3\left(\frac{9}{5}\cdot 5\right)=\log_3 9=2$
***Doğru cavab:*** 2

**A variantı 65 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 72 saylı test tapşırığı**
**D variantı 62 saylı test tapşırığı**

Kürənin radiusunu necə dəyişmək lazımdır ki, həcmi
8 dəfə artsın?
A) 4 dəfə artırmaq B) 2 dəfə azaltmaq
C) $\sqrt[3]{2}$ dəfə artırmaq D) 2 dəfə artırmaq
E) $\sqrt[3]{2}$ dəfə azaltmaq

***Mövzu:*** Fırlanma cisimləri
***Sinif:*** 11
***Alt-standart:*** 3.2.5. Kürənin səthinin sahəsinin və həcminin tapılmasına aid məsələlər həll edir.
***İzah:*** Kürənin həcmi $V=\frac{4}{3}\pi r^3$ düsturu ilə hesablanır. Deməli, kürənin həcmi kürənin radiusunun kubu ilə düz mütənasibdir. Həcmin 8 dəfə artması üçün radius 2 dəfə artırılmalıdır.
***Doğru cavab:*** 2 dəfə artırmaq

**A variantı 66 saylı test tapşırığı**
**B variantı 63 saylı test tapşırığı**
**C variantı 65 saylı test tapşırığı**
**D variantı 65 saylı test tapşırığı**

{3; 4; 5} çoxluğunun elementlərindən rəqəmləri ***təkrarlanmayan*** neçə müxtəlif ikirəqəmli ədəd düzəltmək olar?
A) 6 B) 9 C) 14 D) 12 E) 8

***Mövzu:*** Birləşmələr nəzəriyyəsi
***Sinif:*** 9
***Alt-standart:*** 5.2.3. Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir.
***İzah:***
**I üsul:** Üçelementli çoxluğun ikielementli nizamlı alt çoxluqlarının sayının tapılması tələb olunur. Onda bu rəqəmlərin köməyi ilə yazıla bilən ikirəqəmli ədədlərin sayı ${}_3P_2=\frac{3!}{1!}=6$ olar.
**II üsul:** Verilmiş çoxluğun elementlərinin sayının az olduğunu nəzərə alaraq məsələnin şərtində tələb olunan ədədləri sayaraq tapaq: $\{34;35;43;45;53;54\}$
***Doğru cavab:*** 6

**A variantı 67 saylı test tapşırığı**
**B variantı 65 saylı test tapşırığı**
**C variantı 68 saylı test tapşırığı**
**D variantı 73 saylı test tapşırığı**

İki perpendikulyar müstəvinin birindən 5 sm, digərindən isə 12 sm məsafədə yerləşən nöqtədən bu müstəvilərin kəsişmə xəttinə qədər olan məsafəni tapın.
A) 14 sm B) 17 sm C) 13 sm
D) 10 sm E) 7 sm
***Mövzu:*** Fəzada düz xətlər və müstəvilər
***Sinif:*** 10
***Alt-standart:*** 3.1.2. Fəzada düz xətlər və müstəvilərin qarşılıqlı vəziyyətinə aid məsələlər həll edir.

***İzah:***




$A$ nöqtəsindən $\alpha$ və $\beta$ müstəvilərinə və müstəvilərin
kəsişmə xəttinə uyğun olaraq $AB$,
$AD$ və $AC$ perpendikulyarları çəkilmişdir. $AC$ düz xətti $\alpha$ müstəvisinə
çəkilən mail, BC isə bu mailin müstəvi üzərindəki proyeksiyasıdır.
Üç perpendikulyar teoremina görə
$AC \perp m \Rightarrow BC \perp m$. Eyni qayda ilə
$AC \perp m \Rightarrow CD \perp m$. Deməli, $\angle BCD$ verilən ikiüzlü bucağın xətti
bucağıdır və $\angle BCD = 90^0$. $ABCD$ düzbucaqlısının tərəfləri
$AD = 12sm,\quad AB = 5sm$ olduğundan Pifaqor teoremina görə
$AC = \sqrt{12^2 + 5^2} = 13\ (sm)$ olar.

***Doğru cavab:*** 13 sm

**A variantı 68 saylı test tapşırığı**
**B variantı 71 saylı test tapşırığı**
**C variantı 66 saylı test tapşırığı**
**D variantı 67 saylı test tapşırığı**

$x^2(a-b) - y^2(a-b)$ çoxhədlisini vuruqlara ayırın.

A) $(a-b)(x-a)(y-b)$ B) $(a+b)(x-y)(x+y)$
C) $(a-b)(x^2-a)(y^2-b)$ D) $(a-x)(b-y)(x+y)$
E) $(a-b)(x-y)(x+y)$

***Mövzu:*** Çoxhədlinin vuruqlara ayrılması
***Sinif:*** 7
***Alt-standart:*** 2.2.1 Çoxhədlilər üzərində toplama, çıxma və vurma əməllərini yerinə yetirir.
***İzah:***
$x^2(a-b) - y^2(a-b) = (a-b)(x^2-y^2) = (a-b)(x-y)(x+y)$
***Doğru cavab:*** $(a-b)(x-y)(x+y)$

**A variantı 69 saylı test tapşırığı**
**B variantı 69 saylı test tapşırığı**
**C variantı 63 saylı test tapşırığı**
**D variantı 61 saylı test tapşırığı**

$\sin^2 x = 1$ tənliyini həll edin.

A) $\pm\frac{\pi}{12} + 2\pi k,\ k \in Z$ B) $\frac{\pi}{2} + \pi k,\ k \in Z$
C) $\pm\frac{\pi}{6} + 2\pi k,\ k \in Z$ D) $\frac{\pi}{3} + \pi k,\ k \in Z$
E) $\frac{\pi}{4} + 2\pi k,\ k \in Z$

***Mövzu:*** Triqonometrik tənliklər
***Sinif:*** 10
***Alt-standart:*** 2.3.1. Triqonometrik tənlik və bərabərsizlikləri həll edir.
***İzah:* I üsul:**

$$\sin^2 x = 1 \Rightarrow 1 - \cos^2 x = 1 \Rightarrow \cos x = 0 \Rightarrow x = \frac{\pi}{2} + \pi k,\ k \in Z$$

**II üsul:**

$$\sin^2 x = 1 \Rightarrow \frac{1-\cos 2x}{2} = 1 \Rightarrow 1 - \cos 2x = 2 \Rightarrow \cos 2x = -1 \Rightarrow$$
$$\Rightarrow 2x = \pi + 2\pi k,\ k \in Z \Rightarrow x = \frac{\pi}{2} + \pi k,\ k \in Z$$

***Doğru cavab:*** $\frac{\pi}{2} + \pi k,\ k \in Z$

**A variantı 70 saylı test tapşırığı**
**B variantı 68 saylı test tapşırığı**
**C variantı 62 saylı test tapşırığı**
**D variantı 64 saylı test tapşırığı**

$\frac{0,3}{0,15} - \frac{\frac{13}{20}}{0,26}$ ifadəsinin qiymətini tapın.

A) 4,5 B) 2,5 C) – 0,5 D) – 1,5 E) 3,5

***Mövzu:*** Adi və onluq kəsrlər
***Sinif:*** 6
***Alt-standart:*** 1.2.4. Adi və onluq kəsrlər üzərində hesab əməllərini yerinə yetirir.

***İzah:*** $\frac{0,3}{0,15} - \frac{\frac{13}{20}}{0,26} = \frac{30}{15} - \frac{13}{20} : \frac{26}{100} = 2 - \frac{13}{20} \cdot \frac{100}{26} =$
$= 2 - \frac{5}{2} = 2 - 2,5 = -0,5$

***Doğru cavab:*** $-0,5$

**A variantı 71 saylı test tapşırığı**
**B variantı 64 saylı test tapşırığı**
**C variantı 64 saylı test tapşırığı**
**D variantı 71 saylı test tapşırığı**

$3 + x \le 7$ bərabərsizliyinin natural həllərinin cəmini tapın.

A) 12 B) 8 C) 10 D) 15 E) 9

***Mövzu:*** Bərabərsizliklər və bərabərsizliklər sistemi
***Sinif:*** 8
***Alt-standart:*** 2.1.2. Birdəyişənli xətti bərabərsizliyə gətirilən sadə məsələləri həll edir.
***İzah:***

$3+x\le 7$

$x\le 7-3$

$x\le 4 \xrightarrow{x\in N} x\in\{1;2;3;4\}$

Onda bərabərsizliyin natural həllərinin cəmi 1+2+3+4=10 olar.

***Doğru cavab:*** 10

**A variantı 72 saylı test tapşırığı**
**B variantı 62 saylı test tapşırığı**
**C variantı 61 saylı test tapşırığı**
**D variantı 69 saylı test tapşırığı**

300 ədədinin 40%-ni tapın.

A) 200 B) 180 C) 150 D) 120 E) 100

***Mövzu:*** Faiz. Nisbət. Tənasüb

***Sinif:*** 5

***Alt-standart:*** 1.2.5 Ədədin hissəsini və faizini tapır.

***İzah:*** $\frac{300\cdot 40}{100}=120$

***Doğru cavab:*** 120

**A variantı 73 saylı test tapşırığı**
**B variantı 73 saylı test tapşırığı**
**C variantı 71 saylı test tapşırığı**
**D variantı 72 saylı test tapşırığı**

Tam səthinin sahəsi 150 $sm^2$ olan kubun bir üzünün diaqonalını tapın.

A) 12 sm B) $5\sqrt{2}$ sm C) $6\sqrt{2}$ sm
D) $3\sqrt{2}$ sm E) 10 sm

***Mövzu:*** Çoxüzlülər, onların səthi və həcmi

***Sinif:*** 10

***Alt-standart:*** 3.2.3. Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir.

***İzah:*** $6a^2=150 \Leftrightarrow a^2=25 \Leftrightarrow a=5(sm)$

$d=a\sqrt{2} \Leftrightarrow d=5\sqrt{2}\,(sm)$

***Doğru cavab:*** $5\sqrt{2}$ sm

**A variantı 74 saylı test tapşırığı**
**B variantı 75 saylı test tapşırığı**
**C variantı 74 saylı test tapşırığı**
**D variantı 76 saylı test tapşırığı**

$a+\frac{1}{a}=3$ olduğunu bilərək $a^2+\frac{1}{a^2}$ ifadəsinin qiymətini hesablayın.

***Mövzu:*** Rasional kəsrlər

***Sinif:*** 8

***Alt-standart:*** 2.2.1. Rasional ifadələr üzərində əməlləri yerinə yetirir.

***İzah:***

**I üsul:** $a+\frac{1}{a}=3$ bərabərliyinin hər iki tərəfini kvadrata yüksəldək:

$\left(a+\frac{1}{a}\right)^2=3^2$

$a^2+2\cdot a\cdot\frac{1}{a}+\frac{1}{a^2}=9$

$a^2+\frac{1}{a^2}=9-2=7$

**II üsul:** $a^2+\frac{1}{a^2}=\left(a+\frac{1}{a}\right)^2-2a\cdot\frac{1}{a}=9-2=7$

***Doğru cavab:*** 7

**A variantı 75 saylı test tapşırığı**
**B variantı 78 saylı test tapşırığı**
**C variantı 78 saylı test tapşırığı**
**D variantı 75 saylı test tapşırığı**

$\left(3\sqrt{32}+4\sqrt{18}\right)\cdot\sqrt{2}$ ifadəsinin qiymətini hesablayın.

***Mövzu:*** Kvadrat köklər. Həqiqi üstlü qüvvət

***Sinif:*** 8

***Alt-standart:*** 1.2.1. Mənfi olmayan həqiqi ədədin hesabi kvadrat kökünün xassələrini tətbiq edərək ifadələrin qiymətini tapır.

***İzah:*** $\left(3\sqrt{32}+4\sqrt{18}\right)\cdot\sqrt{2}=3\sqrt{64}+4\sqrt{36}=3\cdot 8+4\cdot 6=48$

***Doğru cavab:*** 48

**A variantı 76 saylı test tapşırığı**
**B variantı 76 saylı test tapşırığı**
**C variantı 77 saylı test tapşırığı**
**D variantı 78 saylı test tapşırığı**

$\alpha=16°$, $\beta=20°$ və $\cup AmB=130°$ olarsa, $\gamma$ bucağının dərəcə ölçüsünü tapın.




***Mövzu:*** Çevrə və dairə

***Sinif:*** 6, 9

***Alt-standart:*** 3.1.4. Çevrə və dairənin elementlərini (vətər, seqment, sektor, mərkəzi bucaq) bilir, onların xassələrini tətbiq edir.
3.1.3. Çevrəyə toxunanın və kəsənin xassələrini tətbiq edir.
***İzah:*** Çevrənin daxilinə çəkilən bucağın xassəsini tətbiq edək. Məlumdur ki, daxilə çəkilmiş bucağın dərəcə ölçüsü söykəndiyi qövsün dərəcə ölçüsünün yarısına bərabərdir. Onda

$2\alpha + 2\beta + 2\gamma = \cup AmB = 130°$

$2 \cdot 16^0 + 2 \cdot 20^0 + 2 \cdot \gamma = 130°$

$2 \cdot \gamma = 58°$

$\gamma = 29°$

***Doğru cavab:*** 29

**A variantı 77 saylı test tapşırığı**
**B variantı 77 saylı test tapşırığı**
**C variantı 76 saylı test tapşırığı**
**D variantı 77 saylı test tapşırığı**

Həqiqi əmsallı $x^2 - 6x + m = 0$ kvadrat tənliyinin köklərindən biri $x_1 = 3 - 2i$ olarsa, $m$ parametrinin qiymətini tapın.
***Mövzu:*** Kompleks ədədlər
***Sinif:*** 11
***Alt-standart:*** 1.2.1. Cəbri şəkildə verilmiş kompleks ədədlər üzərində hesab əməllərini yerinə yetirir.
***İzah:***
**I üsul:** Məlumdur ki, həqiqi əmsallı kvadrat tənliyin həqiqi kökləri yoxdursa, onun kökləri qoşma kompleks ədədlər olacaq: $x_1 = 3 - 2i$ olarsa, onda $x_2 = 3 + 2i$. Viyet teoreminə görə

$m = x_1 \cdot x_2 = (3 + 2i) \cdot (3 - 2i) = 9 - 4i^2 = 9 + 4 = 13$

**II üsul:** Viyet teoremini məsələnin şərtində nəzərə alsaq,

$$\begin{cases} x_1 + x_2 = 6 \\ x_1 \cdot x_2 = m \\ x_1 = 3 - 2i \end{cases} \Rightarrow \begin{cases} x_2 = 6 - x_1 \\ x_1 \cdot x_2 = m \\ x_1 = 3 - 2i \end{cases} \Rightarrow \begin{cases} x_2 = 3 + 2i \\ x_1 \cdot x_2 = m \\ x_1 = 3 - 2i \end{cases} \Rightarrow$$

$$\Rightarrow \begin{cases} x_2 = 3 + 2i \\ (3 + 2i) \cdot (3 - 2i) = m \\ x_1 = 3 - 2i \end{cases} \Rightarrow m = 13$$

olar.
**III üsul:** $x_1 = 3 - 2i$ tənliyin kökü olduğundan tənliyi doğru bərabərliyə çevirir:

$(3 - 2i)^2 - 6(3 - 2i) + m = 0$

$9 - 12i + 4i^2 - 18 + 12i + m = 0$

$9 - 4 - 18 + m = 0$

$m = 13$

***Doğru cavab:*** 13

**A variantı 78 saylı test tapşırığı**
**B variantı 74 saylı test tapşırığı**
**C variantı 75 saylı test tapşırığı**
**D variantı 74 saylı test tapşırığı**

$\tan\alpha + \tan\beta = 8,\ \ \tan(\alpha + \beta) = -\frac{8}{11}$ olarsa, $\tan\alpha \cdot \tan\beta$ hasilini tapın.

***Mövzu:*** Triqonometrik funksiyalar üçün toplama teoremi
***Sinif:*** 10
***Alt-standart:*** 2.1.3. Triqonometrik funksiyalar üçün toplama düsturlarını, onlardan alınan nəticələri bilir və tətbiq edir.

***İzah:***

$$\tan(\alpha + \beta) = \frac{\tan\alpha + \tan\beta}{1 - \tan\alpha \cdot \tan\beta} \Rightarrow$$

$$\begin{cases} \dfrac{\tan\alpha + \tan\beta}{1 - \tan\alpha \cdot \tan\beta} = -\dfrac{8}{11} \\ \tan\alpha + \tan\beta = 8 \end{cases} \Rightarrow$$

$$\Rightarrow 1 - \tan\alpha \cdot \tan\beta = -11 \Rightarrow \tan\alpha \cdot \tan\beta = 12$$

***Doğru cavab:*** 12

***79 – 85 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**A variantı 79 saylı test tapşırığı**
**B variantı 79 saylı test tapşırığı**
**C variantı 79 saylı test tapşırığı**
**D variantı 79 saylı test tapşırığı**

Sabit $x$ km/saat sürətlə axan çayın sahilində bir düz xətt boyunca ardıcıl olaraq $A$, $B$ və $C$ məntəqələri yerləşir. Motorlu qayıq çayın axını istiqamətində $A$ məntəqəsindən $C$ məntəqəsinə gedib, sonra isə axının əksinə $C$-dən $B$-yə qayıdıb. $AB$ = 44 km olarsa, cədvəldə verilənlərə görə çayın axma sürətini tapın.

| | Sürət (km/ saat ilə) | Zaman (saat ilə) |
|---|---|---|
| Axın istiqamətində ($A \to C$) | $30 + x$ | 4 |
| Axının əksi istiqamətində ($C \to B$) | $30 - x$ | 3 |




***Mövzu:*** Birməchullu tənliklər və məsələlər
***Sinif:*** 7
***Alt-standart:*** 2.1.1. Həyati situasiyaya uyğun xətti və ya ikidəyişənli iki xətti tənliklər sistemini tərtib edir.
2.2.2. Birdəyişənli xətti tənliyi, modul işarəsi daxilində dəyişəni olan tənliyi və ikidəyişənli iki xətti tənliklər sistemini həll edir.

***İzah:***
Şərtə görə çayın axma sürəti *x* km/saat-dır. Cədvəli təhlil etsək, qayığın durğun sudakı sürətinin 30 km/ saat olduğunu müəyyənləşdirərik. Onda motorlu qayığın getdiyi yol aşağıdakı ifadələrin köməyi ilə hesablanar:

$S_{axın.i.} = |AC| = (30+x)\cdot 4 \ (km)$

$S_{axına\,q.} = |CB| = (30-x)\cdot 3 \ (km)$

| | Sürət (km/ saat ilə) | Zaman (saat ilə) | Gedilən yol (km ilə) |
|---|---|---|---|
| Axın istiqamətində ($A \to C$) | $30+x$ | 4 | $(30+x)\cdot 4$ |
| Axının əksi istiqamətində ($C \to B$) | $30-x$ | 3 | $(30-x)\cdot 3$ |

*A, B, C* məntəqələri bir düz xətt boyunca yerləşdiyindən

$|AB| = |AC| - |CB|$

$(30+x)\cdot 4 - (30-x)\cdot 3 = 44$

$120 + 4x - 90 + 3x = 44$

$30 + 7x = 44$

$7x = 14$

$x = 2 \ (km/saat)$

***Qeyd:*** Məsələni həll etmək üçün tənliyi $|AC| = |AB| + |CB|$ və ya $|CB| = |AC| - |AB|$ formasında da qurmaq olar.
***Doğru cavab:*** 2 km/ saat

**A variantı 80 saylı test tapşırığı**
**B variantı 80 saylı test tapşırığı**
**C variantı 80 saylı test tapşırığı**
**D variantı 80 saylı test tapşırığı**

Rombun iti bucağı $60^o$, kiçik diaqonalı 3 sm-dir. Rombun xarici oblastında olmaqla tərəfləri üzərində qurulmuş kvadratların sahələri cəmini tapın.
***Mövzu:*** Fiqurların sahəsi
***Sinif:*** 8
***Alt-standart:*** 3.1.1. Dördbucaqlının əsas elementlərini və onlar arasındakı münasibətləri bilir, həndəsi təsvir edir.
3.1.4. Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır.
3.1.5. Dördbucaqlının təsnifatını (paraleloqram, düzbucaqlı, romb, trapesiya) və xassələrini bilir, paraleloqramın əlamətlərini tətbiq edir.
***İzah:***




*ABCD* romb olduğundan *AB=BC=CD=DA* olar. Yəni *ABD*
üçbucağı oturacağı *BD* olan bərabəryanlı üçbucaqdır.
Oturacağa bitişik bucaqları tapaq:

$(180^0 - 60^0):2 = 60^0$.

Beləliklə, *ABD* üçbucağının bütün bucaqları bərabərdir,
yəni üçbucaq bərabərtərəflidir:
*AB=BD=AD*=3 sm.



Rombun tərəfləri üzərində qurulan kvadratların tərəfləri 3 sm olduğundan

$S_{kvadrat} = 3^2 = 9 \ (sm^2)$ olar.

Beləliklə, 4 konqruyent kvadratın sahələri cəmi $9\cdot 4 = 36 \ (sm^2)$ tapılır.

***Qeyd:*** *ABD* üçbucağının bərabərtərəfli olduğunu rombun iti bucağını və *BD* diaqonalının tənbölən

olduğunu bilərək, kor bucağının $120^0$ olduğunu müəyyənləşdirib üçbucağın bucaqlarını tapmaqla da təyin etmək olar.

***Doğru cavab:*** 36 sm$^2$.

**A variantı 81 saylı test tapşırığı**
**B variantı 81 saylı test tapşırığı**
**C variantı 81 saylı test tapşırığı**
**D variantı 81 saylı test tapşırığı**

Yeni il üçün hazırlanmış şam ağacının budaqları mərtəbələr şəklində düzülmüş və bu mərtəbələr yuxarıdan aşağıya doğru 1-dən 9-a qədər nömrələnmişdir. Mərtəbələrdəki budaqların sayı nömrələndiyi ardıcıllıqla ədədi silsilə əmələ gətirir. 2-ci və 8-ci mərtəbələrdəki budaqların sayları cəmi 18-ə, 9-cu və 5-ci mərtəbələrdəki budaqların sayları fərqi 8-ə bərabər olarsa, ən alt mərtəbədəki budaqların sayını tapın.

***Mövzu:*** Ədədi ardıcıllıqlar. Silsilələr
***Sinif:*** 9
***Alt-standart:*** 2.1.3. Ardıcıllıqların, ədədi və həndəsi silsilələrin xassələrini məsələ həllinə tətbiq edir.
***İzah:*** Şərtə görə şam ağacının budaqları yuxarıdan aşağıya doğru nömrələnib və nömrələndiyi ardıcıllıqla ədədi silsilə təşkil edir. 2-ci və 8-ci mərtəbələrdəki budaqların saylarını ədədi silsilənin uyğun olaraq 2-ci və 8-ci, 9-cu və 5-ci mərtəbələrdəki budaqların saylarını isə ədədi silsilənin uyğun olaraq 9-cu və 5-ci hədləri qəbul edərək məsələnin şərtinə əsasən aşağıdakı tənliklər sistemini qura bilərik:

$$\begin{cases} a_2 + a_8 = 18 \\ a_9 - a_5 = 8 \end{cases}$$

**I üsul:** Ədədi silsilənin hədlərinin $a_n = \dfrac{a_{n-k} + a_{n+k}}{2}$ xassəsinə əsasən $a_5 = \dfrac{a_2 + a_8}{2}$ olduğundan $a_2 + a_8 = 2a_5$ . Sistemin birinci tənliyində bu nəticəni nəzərə alsaq, $2a_5 = 18 \Rightarrow a_5 = 9$ olar.

$$\begin{cases} a_5 = 9 \\ a_9 - a_5 = 8 \end{cases} \Rightarrow \begin{cases} a_5 = 9 \\ a_9 - 9 = 8 \end{cases} \Rightarrow \begin{cases} a_5 = 9 \\ a_9 = 17 \end{cases}$$

**II üsul:** Ədədi silsilənin n-ci həddinin düsturunu nəzərə alaq: $a_n = a_1 + (n-1) \cdot d$

Onda

$$\begin{cases} a_2 + a_8 = 18 \\ a_9 - a_5 = 8 \end{cases} \Rightarrow \begin{cases} a_1 + d + a_1 + 7d = 18 \\ a_1 + 8d - a_1 - 4d = 8 \end{cases} \Rightarrow \begin{cases} 2a_1 + 8d = 18 \\ 4d = 8 \end{cases} \Rightarrow$$

$$\begin{cases} a_1 + 4d = 9 \\ d = 2 \end{cases} \Rightarrow \begin{cases} a_1 = 1 \\ d = 2 \end{cases}$$

$$a_9 = a_1 + 8d = 1 + 8 \cdot 2 = 17$$

**III üsul:** Ədədi silsilənin 9-cu həddindən asılı olaraq sistemi bu şəkildə yaza bilərik:

$$\begin{cases} a_9 - 7d + a_9 - d = 18 \\ a_9 - a_9 + 4d = 8 \end{cases} \Rightarrow \begin{cases} 2a_9 - 8d = 18 \\ 4d = 8 \end{cases} \Rightarrow \begin{cases} 2a_9 - 8d = 18 \\ 8d = 16 \end{cases}$$

$$\Rightarrow 2a_9 = 34 \Rightarrow a_9 = 17$$

***Doğru cavab:*** 17

**A variantı 82 saylı test tapşırığı**
**B variantı 82 saylı test tapşırığı**
**C variantı 82 saylı test tapşırığı**
**D variantı 82 saylı test tapşırığı**

*ABC* üçbucağında $\angle C = 90°$, *BC* = 8 sm, *M*, *N*, *E* nöqtələri isə uyğun olaraq *AC*, *CB* və *AB* tərəflərinin orta nöqtələridir. $S_{\Delta MNE} = 10$ sm$^2$ olarsa, *AC*-nin uzunluğunu tapın.




***Mövzu:*** Fiqurların sahəsi
***Sinif:*** 8
***Alt-standart:*** 3.1.4. Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır.
1.2.5. Nisbət və tənasübün xassələrini, faizin düsturlarını müxtəlif məsələlərin həllinə tətbiq edir.
***İzah:*** *M*, *N*, *E* nöqtələri, uyğun olaraq, *AC*, *CB* və *AB* tərəflərinin orta nöqtələridir, deməli, *MN*, *NE* və *ME* xətləri üçbucağın orta xətləridir.
**I üsul:** Orta xəttin xassəsinə əsasən demək olar ki, *MNE* üçbucağının bütün tərəflərinin uzunluqları *ABC* üçbucağının tərəflərinin uzunluqlarının yarısına bərabərdir. Deməli, $\Delta ABC \sim \Delta NME$ (TTT əlamətinə görə): $k = \dfrac{AB}{NM} = \dfrac{BC}{ME} = \dfrac{AC}{NE} = 2$

Onda oxşar $F_1 \sim F_2$ fiqurların sahələrinin $\dfrac{S_{F_1}}{S_{F_2}} = k^2$ xassəsini nəzərə alsaq, $\dfrac{S_{\Delta ABC}}{S_{\Delta NME}} = 2^2 = 4$.

Beləliklə, $S_{\Delta ABC} = 40 sm^2$.

ABC üçbucağının düzbucaqlı olduğunu bilərək

$$S_{\Delta ABC} = \frac{1}{2} AC \cdot CB$$

$$AC = \frac{2 \cdot S_{\Delta ABC}}{BC} = \frac{2 \cdot 40}{8} = 10(sm)$$

**II üsul:** $ME = \frac{BC}{2} = 4(sm)$.

$ME \parallel BC, NE \parallel AC$ olduğundan *CNEM*-paraleloqramdır, $\angle C = 90^0 \Rightarrow$ *CNEM* düzbucaqlıdır. Onda *MNE* üçbucağı katetləri *ME* və *EN* olan düzbucaqlı üçbucaqdır:

$$S_{\Delta MNE} = \frac{1}{2} ME \cdot NE$$

$$NE = \frac{2 \cdot S_{\Delta MNE}}{ME} = \frac{2 \cdot 10}{4} = 5(sm) \Rightarrow AC = 2 \cdot NE = 10(sm)$$

**III üsul:**

$$S_{\Delta MNE} = S_{\Delta MNC} = S_{\Delta AME} = S_{\Delta NEB} = \frac{1}{4} \cdot S_{\Delta ABC} = 10(sm^2)$$

$$\Rightarrow S_{\Delta ABC} = 40(sm^2)$$

$$S_{\Delta ABC} = \frac{1}{2} AC \cdot CB$$

$$AC = \frac{2 \cdot S_{\Delta ABC}}{BC} = \frac{2 \cdot 40}{8} = 10(sm)$$

***Doğru cavab:*** 10 sm

**A variantı 83 saylı test tapşırığı**
**B variantı 83 saylı test tapşırığı**
**C variantı 83 saylı test tapşırığı**
**D variantı 83 saylı test tapşırığı**

Perimetrləri cəmi 34 sm olan *ABCD* və *CEFM* paraleloqramlarının diaqonalları bir düz xətt üzərindədir. *AF* = 13 sm olarsa, *ABC* və *CFM* üçbucaqlarının perimetrləri cəmini tapın.




***Mövzu:*** Çoxbucaqlılar. Dördbucaqlılar.
***Sinif:*** 8
***Alt-standart:*** 3.1.5. Dördbucaqlının təsnifatını (paraleloqram, düzbucaqlı, romb, trapesiya) və xassələrini bilir, paraleloqramın əlamətlərini tətbiq edir.
***İzah:*** Paraleloqramın qarşı tərəflərinin uzunluqlarının bərabər olduğunu bilərək yaza bilərik:

$$\begin{cases} P_{ABCD} = 2 \cdot (AB + BC) \\ P_{CEFM} = 2 \cdot (CM + MF) \end{cases} \Rightarrow P_{ABCD} + P_{CEFM} = 34$$

$$\Rightarrow 2 \cdot (AB + BC + CM + MF) = 34 \Rightarrow$$

$$\Rightarrow AB + BC + CM + MF = 17$$

Üçbucaqların perimetrlərini yazaq:

$$\begin{cases} P_{\Delta ABC} = AB + BC + AC \\ P_{\Delta CFM} = CM + MF + CF \end{cases} \Rightarrow$$

$$P_{\Delta ABC} + P_{\Delta CFM} = (AB + BC + AC) + (CM + MF + CF) =$$

$$= (AB + BC + CM + MF) + (AC + CF) =$$

$$= (AB + BC + CM + MF) + AF = 17 + 13 = 30(sm)$$

***Doğru cavab:*** 30 sm

**A variantı 84 saylı test tapşırığı**
**B variantı 84 saylı test tapşırığı**
**C variantı 84 saylı test tapşırığı**
**D variantı 84 saylı test tapşırığı**

Şəkildə üzərində hərflər yazılmış 16 ədəd kart təsvir edilmişdir. Bu kartlar torbaya atılır və təsadüfi olaraq
3 kart torbaya qaytarılmamaq şərti ilə ardıcıl çıxarılır. Çıxarılan kartlardan birincisinin B, ikincisinin A, üçüncüsünün isə C hərfi yazılmış kart olması hadisəsinin ehtimalını tapın.




***Mövzu:*** Ehtimal nəzəriyyəsi
***Sinif:*** 9
***Alt-standart:*** 5.2.3. Birləşmələrin köməyi ilə ehtimala aid sadə məsələləri həll edir.
***İzah:*** Şərtə görə torbada 4 ədəd A, 8 ədəd B və 4 ədəd C hərfi yazılmış kart var.
**I üsul:** Birinci çıxarılan kartın üzərində B hərfinin olması hadisəsinin ehtimalı $p_1 = \frac{8}{16} = \frac{1}{2}$ olar.
Çıxarılan kartların torbaya qaytarılmadığını nəzərə alsaq, torbadan ikinci çıxarılan kartın A yazılmış kart olması hadisəsinin ehtimalı $p_2 = \frac{4}{15}$, üçüncü çıxarılan kartın C yazılmış kart olması hadisəsinin ehtimalı isə $p_3 = \frac{4}{14} = \frac{2}{7}$ olar. Şərti ehtimalın tapılması qaydasına görə

$$p = p_1 \cdot p_2 \cdot p_3 = \frac{1}{2} \cdot \frac{4}{15} \cdot \frac{2}{7} = \frac{4}{105}$$

**II üsul:** Bu kartların çıxarılma ardıcıllığını nəzərə almayıb, torbadan çıxarılan üç kartın müxtəlif hərflər yazılmış kartlar olması hadisəsinin ehtimalını hesablayaq:

$p = \frac{4\cdot4\cdot8}{{}_{16}C_3} = \frac{4\cdot4\cdot8}{\frac{16!}{3!\cdot13!}} = \frac{3!\cdot13!\cdot4\cdot4\cdot8}{16!} = \frac{24}{105}$. Məlumdur ki, hesablanmış ehtimal eyniehtimalli uyuşmayan 6 hadisənin birləşməsinin ehtimalıdır (A-B-C, B-A-C, A-C-B , B-C-A, C-A-B, C-B-A çıxarılması hadisəsinin). Deməli,

$p_{(B-A-C)} = \frac{24}{105}\cdot\frac{1}{3!} = \frac{4}{105}$

***Doğru cavab:*** $p = \frac{4}{105}$

**A variantı 85 saylı test tapşırığı**
**B variantı 85 saylı test tapşırığı**
**C variantı 85 saylı test tapşırığı**
**D variantı 85 saylı test tapşırığı**

Hovuzu doldurmaq üçün istifadə edilən *A* kranından, boşaltmaq üçün isə istifadə edilən *B* kranından axan suyun miqdarının zamandan asılılıq qrafikləri verilmişdir. Hər iki kran eyni zamanda açılarsa və 8 saat açıq qalarsa, həcmi 50 $m^3$ olan boş hovuzun neçə faizi su ilə dolar?




***Mövzu:*** Funksiyalar və qrafiklər
***Sinif:*** 7
***Alt-standart:*** 3.2.3. $y = kx + b$ tənliyi ilə verilmiş düz xəttin qrafikini qurur, bu düz xəttin koordinat oxları ilə kəsişmə nöqtələrinin müəyyən edir.
***İzah:***
**I üsul:** Qrafiklər düz mütənasib asılılığı ifadə edir, yəni $y = kx$ düsturu ilə yazılır. *A* qrafikinin (2;18), *B* qrafikinin isə (3;15) nöqtəsindən keçdiyini nəzərə alsaq, funksiyaların analitik yazı forması aşağıdakı kimi olar:
***A:*** $y_A = 9x$
***B:*** $y_B = 5x$
Kranlar 8 saat açıq qaldığından
$y_A(8) = 9\cdot8 = 72(m^3)$
$y_B(8) = 5\cdot8 = 40(m^3)$
və A kranı hovuzu doldurub, B kranı boşaltdığı üçün hovuzda 72-40=32($m^3$) su olar.

Onda hovuzun $\frac{32}{50}\cdot100\% = 64\%$ -i dolmuş olar.
**II üsul:**
Qrafiklərdən məlumdur ki, A kranından 2 saata 18 $m^3$, B kranından isə 3 saata 15 $m^3$ su axır. Onda 1 saata A kranından 9, B kranından isə 5 $m^3$ su axar. Hər iki kran açıq olarsa, 1 saata hovuzda 9-5=4 $m^3$ su olar. 8 saata isə hovuzdakı suyun miqdarı $8\cdot4 = 32(m^3)$ olacaq. Bu isə hovuzun
$\frac{32}{50} = \frac{16}{25}\cdot100\% = 64\%$ -ni təşkil edir.
***Doğru cavab:*** 64%

## Русский язык

**Вариант A 31 тестовое задание**
**Вариант B 31 тестовое задание**
**Вариант C 31 тестовое задание**
**Вариант D 40 тестовое задание**

В каком предложении первая часть – двусоставное предложение, вторая – односоставное?
A) Беседа дорогу коротает, а песня работу облегчает.
B Ночь темна, но видно всю деревню.
C) С севера тянуло ветром, но он был мягок и ласков.
D) Дождя уже не было, но ветер крепчал.
E) Уеду, и сниться мне станут далёкий лес и сосны.

**Тема:** Двусоставные и односоставные предложения
**Класс**: 8,11
**Подстандарт**: 8 кл. 4.1.1. Различает виды и типы простых предложений.
11 кл. 4.1.1. Целенаправленно использует предложения различных конструкций.
**Объяснение**: В двусоставных предложениях грамматическая основа состоит из подлежащего и сказуемого, в односоставных – только из подлежащего или только из сказуемого. В трёх предложениях 1-я часть – односоставные предложения с главным членом сказуемым.
*С севера тянуло ветром, но он был мягок и ласков.*
*Дождя уже не было, но ветер крепчал.*
*Уеду, и сниться мне станут далёкий лес и сосны.*

В предложении *Беседа дорогу коротает, а песня работу облегчает*. обе части двусоставные.
В предложении *Ночь темна, но видно всю деревню.* 1-я часть двусоставная, а 2-я – односоставная с главным членом сказуемым.
**Верный ответ**: Ночь темна, но видно всю деревню.

**Вариант A 32 тестовое задание**
**Вариант B 33 тестовое задание**
**Вариант C 40 тестовое задание**
**Вариант D 33 тестовое задание**

Выделенные существительные в предложении "***В лесу*** *раздавался топор* ***дровосека***." соответственно являются
A) сказуемым, определением
B) подлежащим, дополнением
C) определением, дополнением
D обстоятельством, определением
E) дополнением, обстоятельством

**Тема:** Второстепенные члены предложения
**Класс**: 5,8,11
**Подстандарт**: 8 кл. 4.1.1. Различает виды и типы простых предложений.
11 кл. 4.1.1. Целенаправленно использует предложения различных конструкций.
**Объяснение**: В данном предложении существительное ***в лесу*** отвечает на вопрос обстоятельства места **где?** и относится к глаголу-сказуемому *(раздавался (где?) в лесу),* а существительное ***дровосека*** отвечает на вопрос определения **чей?** и относится к существительному *(топор (чей?) дровосека).* Это несогласованное определение.
**Верный ответ**: обстоятельством, определением

**Вариант A 33 тестовое задание**
**Вариант B 36 тестовое задание**
**Вариант C 33 тестовое задание**
**Вариант D 35 тестовое задание**

Укажите предложение, в котором подчёркнутое существительное стоит в форме родительного падежа.
A Широко улыбнувшись, Мартин оттолкнулся от некрашеной стены и приветливо мне помахал.
B) Мы поехали в ветеринарную клинику, чтобы сделать коту прививки.
C) В корне некоторых растений находится много микроэлементов.
D) Суд вынес грабителю приговор, который обязал вернуть всё похищенное законным владельцам.
E) За окнами поднималось яркое солнце, озаряя лучами крыши домов.

**Тема:** Склонение имён существительных
**Класс**: 6,10
**Подстандарт**: 6 кл. 4.1.2. Объясняет грамматическое значение слова согласно контексту.
10 кл. 4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.
**Объяснение**: Падеж существительных определяется по вопросу от главного слова, к которому это существительное относится. Также определённому падежу соответствуют конкретные предлоги. Родительный падеж отвечает на вопросы ***кого? чего?.***
*Оттолкнулся ( от чего?) от стены* – **родительный падеж.**
*Поехали (куда? во что?) в клинику* – **винительный падеж.**
*Вернуть (кому?) владельцам* – **дательный падеж.**
*Находится (где? в чём?) в корне* – **предложный падеж.**
*Поднималось (что?) солнце* – **именительный падеж.**
Предлог ***от*** употребляется только с родительным падежом.
**Верный ответ**: Широко улыбнувшись, Мартин оттолкнулся от некрашеной стены и приветливо мне помахал.

**Вариант A 34 тестовое задание**
**Вариант B 34 тестовое задание**
**Вариант C 37 тестовое задание**
**Вариант D 39 тестовое задание**

Последовательно происходящие явления перечисляются в предложении
A) По обе стороны улицы чернели дома, и не было видно ни одного огонька.
B) Весело бежал ручей, и жёлтые цветы раскрывались на солнцепёке.
